# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 22 (3438) Cümə axşamı / 9 iyun 2022-ci il Qiymәti 40 qəpik


# Büdcəyə yenidən baxılacaq

***Yaxın günlərdə bu ilin dövlət büdcəsinə əlavə və dəyişikliklərin edilməsi gözlənilir. Prezident İlham Əliyevin mayın 27-də Zəngilan rayonunda çıxışı zamanı iqtisadiyyatımızın mövcud müsbət nəticələrini nəzərə alaraq 2022-ci ilin dövlət büdcəsinə əlavələr edilməsi ilə bağlı hökumətə verdiyi tapşırıqdan irəli gələrək İqtisadi Şuranın növbəti iclası keçirilib. Qeyd edək ki, iclasda cari ilin ötən dövrü üzrə iqtisadi vəziyyət, ortamüddətli sosial-iqtisadi proqnoz göstəriciləri, büdcə gəlirlərinin nəzərdə tutulandan daha çox icra olunması, 2022-ci ilin dövlət büdcəsinə yenidən baxılması (dürüstləşmə) və digər cari məsələlər geniş müzakirə olunub. 2022-ci ilin dövlət büdcəsinə əlavə düzəlişlər hazırlanaraq baxılması üçün Prezidentə təqdim olunması ilə bağlı aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.***



Bəs görəsən, büdcə sənədində hansı dəyişikliklərin edilməsi gözlənilir? Ümumiyyətlə, hökumət hansı istiqamətlər üzrə vəsaitlərin həcmini artırmalıdır?

■ **Mövzunu hafta.az-a şərh edən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri Ruslan Atakişiyev bildirib ki, büdcədə vəsaitin genişləndirilməsi ilə yanaşı, ona nəzarət tədbirləri də artırılmalıdır:**

"Yaxşı olar ki, büdcə vəsaitlərinin daha qənaətli, şəffaf və təyinatı üzrə xərclənməsinə nəzarət gücləndirilsin, hesabatlılıq təmin olunsun. Bu çox vacib məsələdir. Biz çox vaxt büdcə vəsaitlərinin təyinatı üzrə xərclənmədiyi ilə qarşılaşırıq.

Məsələn, tibbi xərclərlə bağlı tutaq ki, tibbi ləvazimatların alınmasına dair büdcədə vəsaitlərə rast gəlirik. Əksər hallarda vətəndaşlar xəstəxanalara gedən zaman tibbi ləvazimatların olmamasından şikayət edirlər. Eyni zamanda, biz orta məktəblərlə bağlı xərclərə baxırıq və görürük ki, dövlət bu istiqamətdə nəzərdə tutulan xərcləri ildən-ilə genişləndirir. Buna baxmayaraq bəzi məktəblərdə valideynlərdən müxtəlif adlar altında təhsil müəsisəsinin xərclərini qarşılamaq məqsədilə vəsaitlər toplanılır. Yəni bunlar onu göstərir ki, büdcədə nəzərdə tutulan vəsaitlər xərclənən zaman ictimai nəzarət olmadığına görə, həmin vəsaitlər yayındırılır.

## Əməkhaqqılar artırılacaq?

Ona görə də hesab edirik, büdcə prosesində ictimaiyyətin iştirakı olmalıdır. Məsələn, xarici təcrübədə büdcədən maliyyələşən bir orta məktəbin növbəti ilki büdcəsi formalaşdırılarkən mütləq prosesdə həm müəllimlər, həm də valideynlər yaxından iştirak edirlər. Azərbaycanda isə bu prosesdə bir direktor olur, bir də baş mühasib iştirak edir".

Ekspert vurğulayıb ki, büdcəyə dəyişikliklər zamanı prioritet istiqamətlər üzrə vəsaitlərin artırılması əsas hədəf olmalıdır: "Son 3 il işğaldan azad olunmuş ərazilərin yenidən qurulması prioritet məsələdir. Sosial sahə isə hökümət üçün həmişə aparıcı istiqamət olub. Hesab edirəm ki, prioritet sahələrdən biri də səhiyyənin keyfiyyətinin artırılması məsələsidir. Eyni zamanda, hökumət insan kapitalının inkişafı məsələsinə diqqət yetirilməlidir. Bundan başqa, hökümət sahibkarlığın inkişafı ilə bağlı olan, xüsusən də sahibkarlığın maliyyələşməsi, maliyyə mənbələrinə çıxış və. s kimi xərclərə diqqəti artırmalıdır".

■ **Məsələ ilə bağlı hafta.az-la fikirlərini bölüşən millət vəkili Vüqar Bayramov deyib ki, hələlik büdcəyə əlavə və dəyişikliklərlə bağlı sənəd parlamentə daxil olmayıb:**

"Nazirlər Kabinetinin cənab Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq 2022-ci ilin dövlət büdcəsinə əlavələr edilməsi ilə bağlı keçirdiyi İqtisadi Şuranın növbəti iclasında bu ilin büdcəsinə düzəlişlər hazırlanması üçün sahəvi qurumlara tapşırıqlar verilib. Həmin qurumların təklifləri alındıqdan sonra layihə baxılması üçün cənab Prezidentə təqdim olunacaq. "Büdcə Sistemi" haqqında Qanuna uyğun olaraq daha sonra layihə Milli Məclisin müzakirəsinə çıxarılacaq".

Onun sözlərinə görə, son günlər daha çox verilən suallar dəyişikliklər ilə hansı istiqamətlərə vəsaitlərin ayrılması və eləcə də əmək haqqlarına necə təsir edəcəyi ilə bağlıdır:

"Qeyd edək ki, 2022-ci ilin dövlət büdcəsində 1 barel neftin qiyməti 50 dollar nəzərdə tutulsa da bu ilin ötən aylarında orta qiymət hər barel üçün 100 dollardan çox olub. Bu isə həm neft, həm də qeyri-neft sektorundan dövlət büdcəsinə daha çox vəsaitin daxil olmasına imkan yaradıb. Təbii ki, layihə hazırlanma mərhələsində olduğu üçün konkret dəyişikliklər ilə bağlı fikir söyləmək mümkün deyil. Dəyişikliklər layihəsi Milli Məclisə təqdim olunduqdan sonra bu istiqamətdə daha konkret müzakirələr aparmaq mümkün olacaq. Bununla yanaşı, Azərbaycanda sosial təminat sisteminin daha da gücləndirilməsi ölkə rəhbərliyinin xüsusi diqqətində olduğu üçün bu istiqamətə daha çox vəsaitin ayrılacağı istisna deyil. Digər tərəfdən, iqtisadi aktivliyin daha da genişləndirilməsi üçün ayrılacaq vəsaitlərin həcminin artırlacağı da gözləniləndir. Eyni zamanda, biz təkliflərimizdə işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasına ayrılan vəsaitlərin həcminin artırılmasını da önə sürəcəyik. Bütövlükdə, mövcud təsdiq olunmuş büdcə sənədinə əsasən, 2022-ci ildə ilk dəfə sosial xərclərin ümumi büdcə xərclərindəki payı 45 faizdən çox olacaq. Büdcə xərclərinin 46.5 faizinin sosial istiqamətə yönəldilməsi sosial təminat məsələlərinin prioritet olduğundan xəbər verir. Bu il ərzində yalnız sosial istiqamətə 14 milyard manata yaxın vəsait ayrılacağı deməkdir. Büdcə imkanlarının artması sosial istiqamətə daha çox vəsaitin ayrılmasına imkan yaradır".

**Sevinc**

> *Büdcəyə dəyişikliklər zamanı prioritet istiqamətlər üzrə vəsaitlərin artırılması əsas hədəf olmalıdır*

> *Azərbaycanda sosial təminat sisteminin daha da gücləndirilməsi ölkə rəhbərliyinin xüsusi diqqətində olduğu üçün bu istiqamətə daha çox vəsaitin ayrılacağı istisna deyil*

### Yeri gəlmişkən...



**Bu il büdcə gəlirləri 25 427 milyon manat, büdcə xərcləri isə 28 543 milyon manatdır.**

Bunlar 2021-ci ilin təsdiq edilmiş proqnozları ilə müqayisədə müvafiq olaraq 5,4 faiz və 4,7 faiz çoxdur. Son nəticədə büdcədə 3 063 milyon manat kəsir yaranması gözlənilir ki, bu da illik müqayisədə 1,7 faiz azalma deməkdir. Büdcə gəlirlərinin 25 868,4 milyon manatı mərkəzləşdirilmiş, 947,6 milyon manatı isə yerli gəlirlər, büdcə xərclərinin isə 28 894 milyon manatı mərkəzləşdirilmiş, 985 milyon manatı isə yerli xərclərdir.

MÜSAHİB

## "Üç dövlət, bir millət"



**Tahsin Ərtuğruloğlu,**
Şimali Kipr Türk Respublikasının Xarici İşlər naziri

***Şimali Kipr Türk Cümhuriyyəti deyəndə ağlımıza yaxın keçmişdə yunan separtizminin qurbanı olmuş, çox sayda şəhid vermiş və Türkiyə Ordusunun müdaxiləsi sayəsində kütləvi qırğınlardan qurtulan, amma onillərdir dünya birliyi tərəfindən haqsız və bilincli şəkildə təcrid edilmiş Kıprıs türk xalqı və qanları bahasına qurub yaratdıqları "Yavru Vətən" gəlir. Sonuncu dəfə 2005-ci ildə olmuşam bu ölkədə - birbaşa təyyarə səfərində. Bizi kül-çiçəklə, oynaq şarkılarla qarşıladılar. Çünki daha bir qardaş ölkə tərfindən tanınacaqlarına inanırdılar, təəssüf.***

*İki ölkənin Ticarət və Sənaye palatalarının nümayəndələri Bakıdakı Nümayəndəliyimizin dəstəyi ilə mümkün əməkdaşlıq kanalları üzərində işləyirlər*

Səh. 2

MÜSAHİB



**Pənah Hüseyn,**
Xalq Partiyasının sədri

■ Azərbaycan-Ermənistan münasibətlərinin nizama salınması, Qarabağla bağlı Azərbaycan xarici siyasətinin optimal olduğunu düşünürəm

■ Azərbaycana qarşı revanşizm şüarları ilə aparılan həmin aksiyalar ölkəmizdə müxalifətin başlaya biləcəyi oxşar aksiyaları tətikləyə bilməz

■ Bu prosesi Prezident Administrasiyası aparır və mandat Prezident tərəfindən verilib

Səh. 3

GÜNÜN FOTOSU...



**Fransua Olland 67 yaşında ilk dəfə evləndi**

GÜNÜN SİTATI



*"Azərbaycanla Ermənistan arasında əhatəli sülh sazişinin imzalanması region üçün əhəmiyyətlidir"*

**Mövlud Çavuşoğlu,**
Türkiyənin xarici işlər naziri

KARİKATURA



**İmtahan həyəcanı**

## "İrəvanın "dəhliz oyunu""

**Elman Nəsirov,**
Millli Məclisin deputatı

Ermənistan parlamenti danışıqların üstündən xətt çəkmək üçün cəhdlər edəcək.

Səh. 7

STATİSTİKA



■ **2021-2022-ci tədris ilində Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil məktəblərinin IX siniflərini 35 100, XI siniflərini 23 505, XII siniflərini isə (əyani-qiyabi tam orta məktəb və qiyabi sinifləri) 134 nəfər bitirir.** Paytaxtda 46 470 nəfər I sinfi başa vurur. Cari tədris ilində BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərində 470 517 şagird təhsil alıb. BŞTİ-nin tabeliyindəki ümumi təhsil məktəblərində ümumilikdə, 29 115 müəllim fəaliyyət göstərir. 2021-2022-ci tədris ilində paytaxt üzrə 275 ümumi təhsil məktəbində fəaliyyət göstərən 1 070 məktəbəhazırlıq qrupuna 25 484 uşaq cəlb olunub.



Səh. 6

## Kreml kövrək sülh prosesinə sarsıdıcı zərbələr vurur

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Gənclər Fondu Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncamla Müşahidə Şurasının tərkibi aşağıdakı redaksiyada verilib:**

Müşahidə Şurasının sədri
Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri

Müşahidə Şurasının üzvləri
Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini
Azərbaycan Respublikası təhsil nazirinin müavini
Azərbaycan Respublikası mədəniyyət nazirinin müavini
Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının sədri
"Azərbaycan Tələbə Gənclər Təşkilatları" İttifaqının sədri
Azərbaycan Könüllü Təşkilatları İttifaqının İdarə Heyətinin üzvü
"Azərbaycanlı Tələbələr və Məzunlar Platforması"nın İdarə Heyətinin üzvü.

***

**Prezident İlham Əliyev R.T.Orucovun Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin birinci müavini təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Rəşad Temraz oğlu Orucov Azərbaycan Respublikası Mərkəzi Bankı sədrinin birinci müavini təyin edilib.

Prezident İlham Əliyevin digər sərəncamı ilə Əliyar Qəhrəman oğlu Məmmədyarov Azərbaycan Respublikası Mərkəzi Bankı ədrinin müavini təyin edilib.

# Prezident "Çəmbərəkənd" parkında yaradılan şəraitlə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Səbail rayonunda yeni salınmış "Çəmbərəkənd" parkında yaradılan şəraitlə tanış olub.**

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov dövlətimizin başçısına parkda görülən işlər barədə məlumat verdi.

Bildirildi ki, paytaxtın Həsən Seyidbəyli küçəsində istifadəsiz ərazidə salınmış yeni parkda yaşıllaşdırma işləri aparılıb, 1200 metr uzunluğunda piyada yolları salınıb, sakinlərin mənalı istirahəti və asudə vaxtlarını səmərəli keçirmələri üçün hər cür şərait yaradılıb. Parkda estakada üzərində piyadalar üçün 147 metr uzunluğunda körpü salınıb, şəhər mənzərəli iki terras düzəldilib, müasir standartlara cavab verən fəvvarə inşa edilib, ərazidə iaşə obyekti, sanitar qovşaq və inzibati bina tikilib. Ərazinin relyefinə uyğun olaraq sürüşmənin qarşısını almaq üçün istinad divarı çəkilib. Həmçinin ərazidə müasir idman və uşaq əyləncə qurğuları quraşdırılıb. Ərazisi 4 hektar olan parkın yaşıllıq sahəsinə qazon örtük döşənib, 50 mindən çox müxtəlif növ ağac, kol və güllər əkilib.

Prezident İlham Əliyev yeni parkdan paytaxtın mənzərəsini seyr etdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin Azərbaycanın inkişafı ilə bağlı müəyyənləşdirdiyi strategiyada Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində görülən işlərin miqyası ilbəil daha da artır. Son illərdə paytaxt sakinlərinin və şəhərimizə gələn qonaqların rahatlığına xidmət edən çoxlu müasir sosial infrastruktur layihələri icra edilib, yeni park və xiyabanlar, istirahət guşələri yaradılıb. Dövlətimizin başçısının təşəbbüsü ilə paytaxtın Səbail rayonunda salınan "Çəmbərəkənd" parkı da onlardan biridir. Burada görülən işlər ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi olmaqla paytaxtımızın daha da gözəlləşməsinə xidmət edir.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# "Üç dövlət, bir millət"

***Şimali Kipr Türk Cümhuriyyəti deyəndə ağlımıza yaxın keçmişdə yunan separtizminin qurbanı olmuş, çox sayda şəhid vermiş və Türkiyə Ordusunun müdaxiləsi sayəsində kütləvi qırğınlardan qurtulan, amma onillərdir dünya birliyi tərəfindən haqsız və bilincli şəkildə təcrid edilmiş Kıprıs türk xalqı və qanları bahasına qurub yaratdıqları "Yavru Vətən" gəlir. Sonuncu dəfə 2005-ci ildə olmuşam bu ölkədə - birbaşa təyyarə səfərində. Bizi kül-çiçəklə, oynaq şarkılarla qarşıladılar. Çünki daha bir qardaş ölkə tərfindən tanınacaqlarına inanırdılar, təəssüf.***

## Müsahib

Yeri gəlmişkən, son vaxtlar, xüsusilə də parlaq Zəfərimizlə başa çatmış 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın, hətta digər türk ölkələrinin də, Şimali Kipr Türk Respublikasının müstəqilliyini tanıya biləcəyinə dair söz-söhbətlər artıb. Hər kəs hesab edir ki, ən azından "Yavru Vətən"i ədalətsiz təcrid vəziyyətindən çıxarmaq üçün iqtisadi-ticarət əlaqələrini artırmaq kimi layihələr həyata keçirmək olar. Amma təbii ki, qərarı verən mənim kimi sadə insanlar deyil, hökumətlərdir.

**Qardaş Kıprıs xalqının və dövlətinin uzun zamandır gözümüzdən uzaq qalmış gerçəkliklərini oxucularımıza yenidən xatırlatmaq məqsədilə Şimali Kipr Türk Respublikasının Xarici İşlər naziri cənab Tahsin Ərtuğruloğlu ilə həmsöhbət olmaq istədim. Xeyli müddət çalışdım, Kıprısda hökumət qurulması kimi presudurlar üzündən bir az gec qaldıq. Hər halda, cənab Ərtuğruloğlu "Həftə içi"nə eksklüziv müsahibə verməyə razı oldu. Soruşacaqsınız ki, nədən danışdıq? Gəlin nazirlə müsahibəni birlikdə oxuyaq:**

- Azərbaycan Kıprıs türkləri üçün özəl və çox mühüm qardaş ölkədir. Əminəm ki, Azərbaycan Respublikası ərazisində 30 ildir davam edən işğalın parlaq qələbə ilə sonlandırılması yaxın gələcəkdə ölkələrimiz arasında əməkdaşlıq imkanlarını daha da artıracaq. Qardaş ölkəmiz Azərbaycanı və böyük dastan yazaraq Qarabağı azad edən azərbaycanlı qardaşlarımızı bu böyük qələbə münasibətilə bir daha təbrik edirəm. Biz iki ölkə arasında mövcud münasibətləri daha da gücləndirmək və ölkələrimiz, xalqlarınmız arasında təmasların mütəmadi hal almasını arzulayırıq. Qarabağda qələbəsi ilə Azərbaycanın yolu açıldı və ümid edirik ki, Şimali Kipr Türk Cümhuriyyəti ilə əlaqələr bundan sonra da genişlənəcək.

Bu arada qeyd edim ki, 20 iyul Sülh və Azadlıq Gününün 47-ci ildönümü ilə əlaqədar Azərbaycan Milli Məclisinin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsi sədrinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə gələrək bir sıra görüşlər keçirib, müzakirələr aparıblar. Sözügedən səfər bir-birimizi daha yaxından tanımağımıza şərait yaratdı və qonaqlarımız ölkəmizi şəxsən gəzərək gördülər, bizdən yerindəcə məlumatlar aldılar. Şübhəsiz ki, iki qardaş ölkə arasında dostluq körpüsünün möhkəmlənməsi və inkişafı baxımından belə səfərlərin böyük əhəmiyyəti var. Biz Şimali Kipr Türk Respublikasına bu cür səfərləri alqışlayırıq.

***- Hörmətli nazir, ölkələrimiz fərqli olsa da, eyni millətik - türkük. Bu baxımdan dövlətlərimiz arasında siyasi, iqtisadi, ticarət əlaqələri genişləndirilməli, vətəndaşlarımız qarşılıqlı səfərlərin sayını artırmalıdırlar. Bu müstəvidə siz nə deyə bilərsiniz?***

- "Üç dövlət, bir millət" deyiminin reallaşması üçün konkret addımlar atılmalıdır. Qarşılıqlı səfərlərin sayı artırılmalı, siyasətçilər, iş adamları, qeyri-hökumət təşkilatları, idmançılar, sənətçilər - hər kəs bir-biri ilə əlaqə saxlamalı, iki dövlət arasında ticarət, turizm, təhsil sahəsində əməkdaşlıq üzərində iş aparılmalıdır. İnanıram ki, bu və buna bənzər istiqamətdə atılacaq addımlarla əlaqələri irəli aparmaq mümkündür. Sevindirici haldır ki, Avropa Şurası Parlament Assambleyası və digər beynəlxalq müstəvilərdə Azərbaycanın hakimiyyət orqanları ilə mütəmadi əlaqə saxlayırıq. Şimali Kipr Türk Respublikası İslam Əməkdaşlıq Təşkilatı və İqtisadi Əməkdaşlıq Təşkilatının müşahidəçi üzvüdür.

*"İki ölkənin Ticarət və Sənaye palatalarının nümayəndələri Bakıdakı Nümayəndəliyimizin dəstəyi ilə mümkün əməkdaşlıq kanalları üzərində işləyirlər*

Bu çərçivədə biz hər iki beynəlxalq təşkilatın tədbirlərinə ev sahibliyi etməkdəyik və bununla əlaqədar olaraq müxtəlif ölkələrdən gələn qonaqlarımızı da ölkəmizdə qəbul edirik. Təbii ki, azərbaycanlı qardaşlarımızı da ölkəmizdə qonaq etməkdən hər zaman məmnunuq.

***- İki dəfə Şimali Kipr Türk Respublikasında olmuş bir jurnalist kimi bilirəm ki, sitrus meyvələriniz, kartofunuz, tərəvəzləriniz çox keyfiyyətlidir, dəniz məhsullarınız isə bir başqa aləmdir. Ölkələrimiz arasında ikitərəfli ticarətlə bağlı fikirləriniz necədir?***

- İki ölkənin Ticarət və Sənaye palatalarının nümayəndələri Bakıdakı Nümayəndəliyimizin dəstəyi ilə mümkün əməkdaşlıq kanalları üzərində işləyirlər. Təbii ki, Şimali Kipr Türk Respublikasının yerli məhsullarını Azərbaycan bazarında görməkdən şad olarıq. Eləcə də Azərbaycan məhsullarını ölkəmizdə də xalqımıza təqdim etmək çox vacibdir. Dövlətimiz kommersiya əlaqələrinin inkişafı və daha səmərəli olması üçün əlindən gələni edir. Kıprıs şirkətləri beynəlxalq yarmarkalara qatılır, öz məhsullarını təbliğ edir, işgüzar əlaqələr yaradır və sair. Elə bu məqsədlə də Azərbaycan iş adamlarını ölkəmizə dəvət etmək istəyirəm.

***- Yunanıstan və Kipr yunanlarının, yəni rumların sizə münasibəti necədir?***

- Rumlar və yunanıstanlılar Kipr türklərinin varlığına qəbul edə bilmədiklərinə görə, Şimali Kipr Türk Cümhuriyyətinin adını eşitməyə dözmürlər. İştirak etdiyimiz platformalarda Kıprıs Türk xalqının haqq davasını və varlıq mübarizəsini izah edirik. Bunu indi çəkəcəyim misaldan daha aydın başa düşə bilərsiniz: İştirak etdiyimiz Krans Montana Forumu toplantılarının birində Yunanıstan nümayəndə heyəti bizdən şikayət etdi. Bildirdlər ki, biz iclasdan kənarlaşdırılmasaq, iclası tərk edəcəklər. Ancaq təşkilat komitəsinin cavabı belə oldu ki, "Kıprıs türkləri bütün proqramlarda iştirak edir və onları yaxından izləyirlər, heç kimlə problemləri yoxdur. Təbii ki, getmək istəyirsənsə, bu qərar sənindir, amma kimlər gedirsə, elə özləri də uduzur". Nəticədə Yunanıstan nümayəndə heyəti iclası tərk etdi. İcmalararası danışıqlar əlli ildən çox davam etdi və Kipr probleminin həlli üçün səylər hər dəfə uğursuz oldu. Kipr məsələsində tərəflər arasında bərabərsizlik davam etdikcə, yunan tərəfinə qondarma "Kipr Respublikası dövləti", türk tərəfinə isə bu qondarma dövlət daxilində "cəmiyyət" kimi rəftar olunduqca, Kipr problemi həll olunmamış qalmağa məhkumdur. Onu da qeyd edim ki, bu status beynəlxalq ictimaiyyət tərəfindən yunan Kiprinə verilib. Odur ki, bu mərhələdə məsuliyyət Kiprdəki tərəflərin statusunu yenidən müəyyənləşdirərək yeni səhifə açması lazım olan beynəlxalq aktyorların üzərinə düşür.

Kiprə gəlincə, top beynəlxalq ictimaiyyətin meydanındadır. Beynəlxalq birlik ya Kıprıs türklərinə qarşı 60 ildir davam edən təcrid siyasətini davam etdirib-etdirməyəcəyinə, ya da bu ədalətsizliyə son qoyub, məsələni Kipr reallıqlarına uyğun, yeni yanaşma ilə gündəmə gətirib-gətirməyəcəyinə qərar verəcək. Adada iki xalq, iki ayrı dövlət, hüquq və suverenlik var. Yunan Kiprinə "Kipr Respublikası", Kipr türklərinə isə bu qondarma dövlətin tərkib hissəsi kimi baxıldığı müddətdə, adada heç bir yeni təşəbbüsdən və ya danışıqlar prosesindən söhbət belə gedə bilməz. Danılmaz faktdır ki, bu gün adada Kipr türk xalqına məxsus dövlət mövcuddur.

***- Kipr probleminin həllini necə görürsünüz?***

- Bilirsiniz, 50 ildən çox müzakirə edilən "iki icmalı, iki zonalı federasiya modeli" 2017-ci ildə Krans Montanada başa çatdı. Kipr türk tərəfi 27-29 aprel 2021-ci il tarixlərində Cenevrədə keçirilən 5+ Birləşmiş Millətlər Təşkilatının qeyri-rəsmi toplantısında iki dövlətin suveren bərabərliyi və bərabər beynəlxalq statusu əsasında, mövcud faktlara əsaslanaraq həllə nail olmağa razılaşdı. Ada və iki tərəfin əməkdaşlığı, Kipr mövzusunda razılığa gələ bilmək üçün yeni hədəflərini irəli aparmaqda qərarlıdır. Cenevrə keçirilən görüşdən sonra BMT-nin baş katibi də Kipr probleminin həlli üçün rəsmən danışıqlara başlamaq üçün ümumi əsasın olmadığını bildirib. Odur ki, biz bundan sonra əsas siyasət olaraq adada iki suveren və bərabərhüquqlu dövlətin, bərabər beynəlxalq statusun mövcudluğu mövqeyindən çıxış edəcəyik. Kiprlə bağlı gələcəkdə hansısa yeni danışıqlar prosesi başladılarsa, bu, yalnız iki suveren, bərabərhüquqlu dövlət və bərabər beynəlxalq status şəraitində mümkündür. Biz heç vaxt bu mövqeyimizdən geri çəkilməyəcəyik.



**Tahsin Ərtuğruloğlu,**
Şimali Kipr Türk Respublikasının Xarici İşlər naziri

✍ ***Vüsal***

# Dörd iyun qiyamı...



**Azərbaycan dövlətinin yaxın tarixində baş verən hadisələr müsbətləri, mənfiləri ilə yenidən gündəmə gətirilməklə yanaşı təhlil olunur, araşdırılır, öyrənilir. Bu mənada daxili siyasi həyatımızda 1993-cü il 4 iyun-Gəncə hadisələri birmənalı qarşılanmır. Bu tarixi faktlar AXC-Müsavat hakimiyyəti dövründə baş verdiyi üçün həmin dövrdə bir-birinin ardınca baş vermiş uğursuzluq AXC-Müsavat iqtidarına qarşı ümumxalq inamının məntiqi nəticəsi kimi qeyd olunur. İyun hadisələri niyə baş verdi, yaxud onun qarşısını almaq olardımı və həmin dövrü necə dəyərləndirmək olar?**

■ **Azərbaycan Kommunist Partiyasının sədri Rauf Qurbanov məlum hadisələrə bağlı hafta.az-a həmin illərdə Gəncədə yaşamış sıravı bir gəncəli kimi danışıb.** O, faktlara söykənərək, Gəncəni Azərbaycan dövlətinin milli dəyərlərini özündə əks etdirən qeyrət qalası, Azərbaycan xalqının namus toxunmazlığının simvolu kimi tərənnüm edib. Onun sözlərinə görə, 1993-cü ildə AXC-Musavat hakimiyyətinin səriştəsizliyi nəticəsində respublikanın müxtəlif regionlarında, o cümlədən Gəncədə hakimiyyət əlehinə ciddi narazılıqlar yaranmışdı. "Şəhərdə xaos, özbaşınalıq, icra orqanlarına tabesizlik mühütü hökm sürürdü. Azərbaycan vətəndaş qarşıdurması, daha doğrusu vətəndaş müharibəsi ərəfəsində idi. Son dərəcədə böhranlı bir vəziyyət yaranmışdı. Azərbaycan Müdafiə Nazirliyinin tabeliyində olan, hərbi hissə AR Prezidentinin əmrinə tabe olmayaraq üsyan etmişdi. Ovaxtkı hakimiyyət məsələnin həlli yolunu dinc əhalini şəhərdən çıxararaq (heç özləri də bilmirdilər ki, 350 min dinc əhalini hara köçürmək olar?) Gəncəni bombalamaqla, üsyançıları susdurmaq və bununla da Azərbaycan ictimaiyyətinin gözünü qıraraq öz diktaturalarını qurmaq istəyirdilər".

R.Qurbanov bildirir ki, həmin vaxt ölkədə bir boşluq yaranmışdı. Gəncə ilə yanaşı, respublikanın digər bölgələrində də hakimiyyətə tabesizlik mühiti var idi. Respublikanı bu çətin vəziyyətdən çıxaracaq yeganə bir şəxs Heydər Əliyev idi.

"Mövcud hakimiyyət yaranmış şəraitin çıxılmaz olduğunu anlayaraq, xalqın qəzəbindən qorxub, məcburiyyət qarşısında qalaraq Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Hansı ki, Heydər Əliyevi vaxtı ilə fiziki cəhətdən məhv etməyə çalışan qüvvələr, nəhayət anladılar ki, Respublikanı düşmüş olduğu bataqlıqdan yalnız H.Əliyev çıxara bilər". R.Qurbanov hesab edir ki, istənilən dövlətin rəhbəri olmaq mümkündür. Lakin xalqın, millətin lideri olmaq isə hər kəsə nəsib olmur:

*"Gəncəni bombalamaqla üsyançıları susdurmaq istəyirdilər"*

"Azərbaycan xalqının bəxti onda gətirdi ki, həmin, cətin bir dövrdə onun Heydər Əliyev kimi lideri vardı. Zaman keçəcək, H.Əliyevin Azərbaycan xalqı üçün nələr ediyini gələcək nəsillər qiymətləndirəcəklər". R.Qurbanov qeyd edir ki, Azərbaycanda marağı olan dövlətlər ölkədə onlara loyal olan siyasi bir hakimiyyətin qalmasında maraqlı idilər.

"Ümummilli Liderin yenidən hakimiyyətə qayıdışı, həmin maraqlı dövlətlərin planlarını alt-üst etdi. İlk öncə Azərbaycan- Ermənistan arasında yaranmış münaqişədə inamlı addım atıldı.

Qarşıdurmaya müvəqqəti son qoyularaq, hər iki dövlət arasında atəşkəs müqaviləsi imzalandı. Bu sabitlikdən məharətlə istifadə edən Heydər Əliyev, xarici investorları respublikaya cəlb etdi və "Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycan Respublikası müstəqil bir dövlət olaraq, özünün tərəqqi yoluna qədəm qoydu. Vaxtilə düzgün təməli qoyulmuş və götürülmüş iqtisadi kurs 2020 ci ildə 44 günlük Zəfər savaşında Azərbaycan dövlətinin 30 ilə yaxın düşmən tapdağı altında qalmış torpaqlarının işğaldan azad olunması ilə nəticələndi. Bu, Heydər Əliyev siyasətinin uzaq görənliyinin bariz nümunəsidir".

✍ ***Tahirə***

"1993-cü il iyunun əvvəllərindən məlumat almağa başladıq ki, Surət Hüseynovun adamları Gəncədən Bakı istiqamətindəki yolboyu rayonlarda hakimiyyətləri ələ keçirərək gəlirlər. 4 İyun hadisələri ərəfəsində mən Prezident Aparatında hərbi quruculuq məsələləri üzrə şöbə rəisinin müavini vəzifəsində çalışırdım. Araşdırmalarımız göstərirdi ki, əslində qiyamçıların o dərəcədə böyük gücü yoxdur və vaxtında qəti qərar verilsə idi, hökumət qüvvələri onlara müqavimət göstərə bilərdi. Məsələ ondadır ki, hakimiyyətin içindəki bir sıra adamlar, o cümlədən bəzi icra başçıları öz maraqları xatirinə, yaxud sadəcə, canlarını təhlükədən qurtarmaq üçün o vaxtkı prezident Əbülfəz Elçibəyə yalan məlumat verir, Surət Hüseynovun gücünü şişirdirdilər".

■ **Bunu hafta.az-a açıqlamasında müdafiə nazirinin sabiq müavini, ehtiyatda olan polkovnik Mehman Səlimov 29 il öncə- 4 iyun Gəncə hadisələri zamanı şahidi olduğu fakt və olaylardan bəhs edərkən söyləyib.** "Mən, təxminən, 1993-cü il iyunun 6-da o zaman dövlət katibi olan Əli Kərimliyə müraciət etdim ki, icazə verin, Bakıda özümün təlim keçdiyim bir taborla qiyamçı qoşunlarının qarşısına gedim. Bilirsiniz, Surət Hüseynovun istifadə etdiyi qoşunların xeyli hissəsinə 1992-ci ilin payızında Qarabağda ermənilərlə genişmiqyaslı döyüşlər məqsədi ilə mən təlim keçmişdim. Ona görə də o hərbçilər məni yaxşı tanıyırdılar. Mənim məqsədim öz nüfuzumdan istifadə edib qiyama qalxmış həmin hərbçiləri yola gətirmək və Azərbaycan dövlətçiliyinə qarşı çıxmaqdan çəkindirmək idi. Eyni zamanda mən dövlətçiliyin qorunması naminə Daxili Qoşunlara komandanlığının da mənə verilməsini və həmin qoşunlar vasitəsilə hərc-mərclik yaranmış rayonlarda hakimiyyətin bərpa edilməsini də təklif etdim. Təəssüf ki, AXC hakimiyyəti təklifimi qəbul etmədi və nəticədə dövlətçiliyimiz üçün təhlükə gerçəkdən böyüdü. Yalnız iyunun 14-də hakimiyyət mənim nüfuz və təcrübəmdən istifadə etmək məcburiyyətində qaldı. Məni bir qrup hərbçi ilə real durumu öyrənmək üçün rayonlara göndərdilər. Əvvəlcə Hacıqabul-Ələt istiqamətində hərəkət etdik. Məlum oldu ki, artıq Gəncədən bəri Haqcıqabul, Əli-Bayramlı(indiki Şirvan)və Salyanadək əksər rayonlar qiyamçıların nəzarətinə keçib. Şahidi olduq ki, cəmi 4 nəfər əsgər Salyan rayonunun girişində post qurub, amma rayonun icra hakimiyyəti, polisi, prokurorluğu və s. Surət Hüseynov tərəfdarlarının nəzarəti altında işləyir. Salyan icra hakimiyyətindəki söhbətlərim və müşahidələrim mənim üçün çox şeyi aydınlaşdırdı. O cümlədən Şamaxı istiqamətinə yollanıb orada da oxşar vəziyyətin şahidi olduq. Bakıya dönüb dövlət katibi Əli Kərimliyə bildirdim ki, artıq gecdir, bu minvalla siz hakimiyyətdən getməli olacaqsınız. Soruşdu ki, nəyə görə belə nəticəyə gəldiniz? Cavab verdim, ona görə ki, yerlərdə hakimiyyətə nəzarəti itirmisiniz, heç kəs mərkəzə tabe olmur", - açıqlamasının davamında bunları bildirən polkovnik 4 İyun hadisələrini 4-5 oktyabr 1994-cü il olayları ilə müqayisə də edib.

*"İcra başçıları Elçibəyə yalan məlumat verirdilər"*

"4 İyun hadisələrini 4-5 oktyabr 1994-cü il olayları ilə müqayisə etsək görərik ki, Surət Hüseynovun ikinci çevrilişə cəhdi zamanı ovaxtkı dövlət başçısı Heydər Əliyev məhz qısa müddətdə yerlərdə və mərkəzdə formalaşdırılmış güclü hakimiyyət strukturları və qəti tədbirlər hesabına təhlükəni sovuşdurdu.

Onu da qeyd etmək gərəkdir ki, bu gün də artıq müstəqil dövlətçiliyimizin 31-ci ilində Azərbaycan dövlətinə müxtəlif xarici düşmən güclər tərəfindən təhdidlər olsa da, dövlət və hökumət strukturlarımız yetərincə təcrübəli və bacarıqlı əllərdədir. O illərdə olduğu kimi, hər hansı bir qruplaşma dövlətimizə qarşı təhlükə yaratmaq iqtidarında deyil", - deyə sabiq nazir müavini vurğulayıb.

✍ ***Sultan***

# Yeni müharibə Ermənistan coğrafiyasında gedəcək

**Dünyanın geosiyasi, hərb sistemində görünən gərginlik Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq istəməyən Ermənistan siyasi cəmiyyətinin keçirdiyi etiraz aksiyaları ilə bir az da ağırlaşır. Bir yandan da 2020-ci il üçtərəfli sazişinə görə bu günə qədər ərazilərimizdən çıxarılmalı olan erməni separatçılarının rus sülhməramlılarının gözü qarşısında təxribatlar törətməsi, Kəlbəcər istiqamətindən sərhədi pozması faktı da səngimir. Belə bir fonda Avropa Birliyi münasibətlərin normallaşmasına dair apardığı danışıqlarda Ermənistanı üçtərəfli sazişə əsasən öz öhdəliklərini yerinə yetirməyə dəvət etsə də, konkret addımlar görünmür. Ümumən mövcud şərait nəyi diqtə edir? Xalq Partiyasının sədri Pənah Hüseyn bu istiqamətdə hafta.az-a müsahibə verərək, maraqlı fikirlər söylədi.**

## Müsahib

***- Pənah bəy, regionda sülhə əngəl yaratmaq istəyən erməni revanşistlərin Azərbaycana qarşı hərbi, informasiya təxribatları indiki şəraitdə bizə qarşı hansı təsirləri yarada bilər və erməni müxalifətinin keçirdiyi aksiyaların daxildə yarada biləcəyi narahatlıq nədir?***

- Bir aydan çoxdur ki, Ermənistanda etiraz aksiyaları gedir. Bu, kəskin fazaya keçməsə də, Ermənistanda ciddi böhranın yaranmasından danışmaq mümkündür. Ermənistanın rəsmi hakimiyyətinin mövqelərini həlledici şəkildə sarsıda bilməsə də, aksiyaçılar kifayət qədər maliyyə qüdrətinə və kökləri xaricdə, konkret Rusiyada olan bir müxalifət kimi hərəkət edirlər. Bir çoxları aksiyada Paşinyanın lider olduğu siyasilərin və hökumətin davam gətirdiyi qənaətindədir. Ona görə də prosesləri bitmiş hesab etmək olmaz.

Elə regional, qlobal proseslərlə bağlı aksiyalar var ki, onlar qonşu ölkələrdə müəyyən aksiyaları tətikləyir, xaricə də öz təsirini göstərir. Azərbaycana qarşı revanşizm şüarları ilə aparılan həmin aksiyalar ölkəmizdə müxalifətin başlaya biləcəyi oxşar aksiyaları tətikləyə bilməz. Bu, siyasi mübarizədən çox, rusiyapərəst qüvvələrin Ermənistanda revanşizmə, siyasi hakimiyyətə gəlmək niyyəti, digər tərəfdən isə Azərbaycan-Türkiyəyə qarşı radikal çıxışlar, antidemokratik şüarlar, dəyərlərlə bağlıdır. Aksiya sırf daxili problemlərlə deyil, Azərbaycan, Türkiyə ilə münasibətlərin normallaşmasına qarşı yönəlib. Revanşist şüarlarla edilən çıxışlar 2020-ci ildə formalaşmış hərbi -siyası reallığın dəyişdirilməsi tələbləri ilə aparılır. Erməni müxalifətinin şüarları Azərbaycanın fəal üzdə olan müxalifətinin mütləq əksəriyyətinin şüarları, ideoloji tələbləri ilə üst-üstə düşmür. Azərbaycanda bəzi müxalif siyasi qüvvələr Paşinyanın ordakı mövqeyini qoruyub saxlamasına simpatiyalarını gizlətmirlər. Azərbaycan ictimai rəyi isə bütövlükdə Ermənistanın bütün təcavüz qüvvələrinə qarşıdır. Paşinyan hökuməti də Azərbaycana qarşı təcavüzü, antiazərbaycan mövqeyindən əl çəkməyib. O aksiyaçılar açıq-aydın Azərbaycana qarşı düşmən mövqeyindən çıxış edən, bölgəsəl sülhü, təhlükəsizliyi təhdid altına salan qüvvələrdir. O aksiyalar Azərbaycana qarşı ağır cinayətlər törətmiş, birbaşa Azərbaycan torpaqlarının işğalında və insanlarımıza qarşı soyqırımı siyasəti yürütmiş şəxslərin - Köçəryanın, Sərkisyanın və digərlərinin rəhbərliyi ilə aparılır.

***- Üçtərəfli sazişə, Avropa Birliyinin apardığı danışıqlara məhəl qoymayan Ermənistan yenə də sərhəddə atəşkəsi pozur, bir çox təxribatlar rus sülhməramlılarının müşahidəsi ilə baş verir. Separatçıları qızışdıran nədir, müharibə istəyirlər?***

- Birmənalı şəkildə deyə bilərəm ki, yeni müharibə olarsa, bu artıq Ermənistanın öz coğrafiyasında gedəcək. Paşinyana qarşı olan qüvvələr bu gərginliyi yaratmaqla onun hərbi iflasını istəyirlər. İndinin özündə nəzarətimizdə olmayan Qarabağ ərazisində olduqca təhlükəli vəziyyət var. İstər Şuşaya, istər bizim oradakı hərbi hissələrə, ərazidə bərpa işlərində iştirak edən insanlara qarşı terror hərəkətlərinin olması istisna deyil. Bilməlidirlər ki, Paşinyan hakimiyyətinin, Ermənistanın bütün gələcəyi, taleyi Azərbaycan və Türkiyə ilə normal münasibətlərin qurulmasından, sülh müqaviləsinin imzalanmasından, iqtisadi, kommunukativ əlaqələrin yaradılması, əldə olunmuş razılıqlara əsasən üzərilərinə düşən öhdəliyin yerinə yetirilməsindən asılıdır. Bütövlükdə bunun erməni cəmiyyəti tərəfindən ağrılı qəbul edilməsinə baxmayaraq onlar bu istiqamətdə getməyə çalışırlar. Rusiya burada sülhməramlı adı ilə 3500 kv.metr ərazini nəzarətdə saxlayır. Gərgin vəziyyətdə onlar da təxribatlarda iştirak edə bilər. Biz bunu Fərruxda və digər loqistik ərazilərdə, yükdaşımalarda, Şuşada hərbçilərimizə hücum hadisələrində gördük. Bütün bunlar hamısı sülhməramlıların gözü qarşısında olmuşdu. Elə həmin sülhməramlıların özü də müəyyən təxribat xarakterli addımlar atırlar. Tutaq ki, oradakı dırnaqarası əhaliyə təlim keçirlər və sair. Bu, Rusiyanın region siyasəti ilə bağlı olan məsələdir. Yəni təhlükə var...

Bizim mövqeyimiz budur ki, sülhməramlılar mümkün qədər tez bölgədən çıxmalıdır. Əgər sülh müqaviləsi olacaqsa, bu, Rusiya sülhməramlılarına da təsir göstərəcək. Hesab edirəm, Rusiyanın sülh müqaviləsinin bağlanmasına maneə olmaq cəhdləri həm də bu məqamla bağlıdır. Rusiya burada gərginlik ocağını saxlamaq istəyir. Gərginlik olmayacaqsa, burada Rusiya sülməramlılarına da ehtiyac olmayacaq. Brüssel görüşlərinə gəlincə, bu danışıqların uğur qazanacağı çoxları üçün gözlənilməz oldu.

Digər tərəfdən, Avropa Birliyinin hərbi baxımdan bu regionda təsir imkanları zəifdir. İqtisadi təsir imkanları isə var. İndi Azərbaycana 2 milyard, Ermənistana 2 milyard yarım yardım təklif ediblər. Avropanın bu məsələdə moderatorluğunun alınmasının arxasında duran da bu faktordur. Bu, xüsusilə Ermənistan üçün vacibdir. Bu vəsait Azərbaycanın ərazilərində bərpa işləri üçün önəmli ola bilər. Amma Ermənistan üçün "olum-qalım" məsələsidir. Ona görə də Avropa Birliyinin vasitəçilik addımları ciddi sayıla bilər.

Bəllidir ki, sərhəd komissiyalarının Moskvada keçirilən görüşündən sonra növbəti görüşlər yenidən Brüsseldə olacaq. Bu da onu göstərir ki, Avropa Birliyi öz təsirini göstərə bilir. Bu, bizim maraqlarımıza cavab verir. Əvvəla, Rusiyanın monopol moderatorluğundan canımız qurtarır və onun bu məsələdə mövqelərinin yumşalmasına təsir edir. Biz prosesin maksimum dərəcədə beynəlxalq hüquqa uyğun getdiyini müşahidə edirik. Şarl Mişelin son məşhur "Qarabağın etnik erməni əhalisi" ifadəsinin özü də bir yenilik kimi qəbul olunur. Bundan sonra Avropa Birliyinin Cənubu Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar Azadlıq radiosuna bu bəyanatın əhəmiyyətini azaldan şərhlər verməyə çalışdı. Bu kimi təsirləri müşahidə etdik. Görünən odur ki, arxayın olmaq olmaz. Buna baxmayaraq, Avropa Birliyi Rusiyaya nisbətən daha verimlidir. Baxaq görək, bundan sonra proseslər necə cərəyan edəcək.

***- Avropa Birliyi, Qərb Rusiyanı nə qədər bölgədən sıxışdıra biləcək? Bir çox hallarda da qeyd edilir ki, Ukrayna Rusiya müharibəsində Rusiya zəifləyəcək və region ölkələri üçün yeni siyasi şərait yaradacaq. Doğrudanmı belədir?***

- Vəziyyət hər an dəyişə bilər. Azərbaycan bütün bu dəyişikliklərə hazır olmağı bacarmalıdır. Bizim təsir imkanlarımız və Türkiyə ilə münasibətlərimizin möhkəmlənməsi bu prosesə daha fəal daxil olmasına nail olmaqdan ibarətdir. Qarşıdan Şuşa Bəyannaməsinin birilliyi gəlir. O Bəyannamədə nəzərdə tutulmuş mühüm əməkdaşlıq istiqamətləri var. Vasitəçi istər Avropa Birliyi, istər Rusiya olsun, Türkiyənin bu prosesdə aktiv müdaxiləsinə nail olmağımız üçün çox vacib bir şərtdir.

Hesab edirəm ki, indiki beynəlxalq konnektur şərait əlverişlidir. O əlverişli şəraitdən istifadə etmək lazımdır. Bizim Azərbaycan hakimiyyətinin daxili siyasəti ilə alternativ, fərqli yanaşmalarımız var. Amma xarici siyasət sahəsində Azərbaycan-Ermənistna münasibətinin nizama salınması, Qarabağla bağlı siyasətində Azərbaycan xarici siyasətinin optimal olduğunu düşünürəm. Üçtərəfli sazişdə Rusiyanın imzası var. Bu sənədə əsasən Rusiyadan öhdəliklərin yerinə yetirilməsi daha ciddi şəkildə tələb olunmalıdır.

Üçtərəfli sazişə əsasən ermənilər Laçından çıxmalı idi. Üçtərəfli sazişə əsasən, Laçın Azərbaycanın nəzarətinə verilməli idi. Bilirik ki, Laçın azərbaycanlılar üçün qapalıdır. Orada Livandan, başqa yerlədən gələn ermənilər yaşayırlar. Məlumdur ki, iyun ayında Laçın dəhlizinə paralel çəkilən yol istifadəyə verilməli idi. Laçından Xankəndinə və Ermənistana gedən bu yol istifadəyə verilən kimi, Azərbaycan Bayrağı orada qaldırılmalı, Azərbaycan əhalisinin qaytarılması məsələsi həll edilməlidir. Bizim qaçqınların Qarabağ ərazisində 34 kənd var idi. Ağdərə, Martuni Xankəndidə minlərlə azərbaycanlı yaşayırdı. İndi bir nəfəri də olsun ora qayıtmayıb. Rusiya sülhməramlıları isə ermənilərin o yerlərə qayıtmaları barədə hesabatlar verirlər. Bütün hallarda hər hansı xarici vətəndaş Azərbaycanın razılığı ilə, Azərbaycanın Bayrağı altında ora girməlidir. Azərbaycan hökuməti Rusiya sülhməramlılarının Xankəndidəki bayrağının endirilməsini tələb etməlidir. O bayraq kimi təmsil edir, çünki razılaşdırılmış sənədlərdə hər hansı dövlət təsisatının orada olması barədə Rusiya ilə razılaşma yoxdur. Yəni həllini gözləyən kifayət qədər problem var. Ümumi hədəflər uğrunda strateji kursun doğru aparıldığı qənaətindəyəm.

***- Bir ildən çoxdur ki, cəmiyyətdə referendumun keçirilməsi məsələsi müzakirə olunur. Belə qeydlər var ki, Vətən müharibəsindən sonra yaranan yeni siyasi-iqtisadi situasiya məsələni yenidən gündəmə gətirib. Xəbərlərə görə iyun ayı ərzində Milli Məclisinin növbədənkənar sessiyasında referendumun keçirilməsi təklif olunacaq. Referendumun hansı əhəmiyyəti var?***

- Hesab edirəm, çoxpartiyalılıq əsasında seçkilər keçirilməlidir. Siyasi partiyalar gücləndirilməlidir. Konstutisiyada dəyişiklik olacaqsa, ciddi seçki islahatlarına ehtiyac var. Bu gün Konstitusiya, referendum məsələsi ilə bağlı bizim başqa tələblərimiz də var. Məlumdur ki, demokratik proses onun əsas subyektləri olan siyasi partiyaların mövqeləri və nüfuzu möhkəmləndirilmədən mümkün deyil. Məsələn, 1991-ci il 18 oktyabr müstəqillik aktında yer alan 28-ci maddə ayrıca siyasi proseslərdə siyasi partiyaların əsas element olmasını təsbit eləmişdi. Sonradan siyasi partiyalar haqqında ayrıca bir müddəa çıxarıldı və səhv eləmirəmsə 55-ci maddədə ictimai-siyasi təşkilatların, siyasi partiyaların yalnız birləşmə hüququndan bəhs olunur. Biz hesab edirik ki, əgər referendum olacaqsa, "siyasi partiyalar siyasi prosesin əsas subyektidir" müddəası orda təsbit olunmalıdır. Əks halda proporsiaonal seçkinin təsbiti texniki məsələyə çevrilə bilər. Yaxud, bəzi qanunlarla insanların Konstitusiya, Mülkiyyət hüquqları ilə bağlı məsələlər pozulur. Konstitusiyada mülkiyyət hüququ ilə bağlı daha konkret müddəalar öz əksini tapmalıdır. Dəyişikliklərdən söz gedirsə, digər sahələrdə də islahatlar olmalıdır. Məsələn, yerli idarəçilik məsələləri ilə bağlı referenduma çıxarılmalı olan məsələlərdən biri də böyük şəhərlərə mer seçkisinin olmasıdır. Bu gün açıq görünür ki, indiki yeni icra hakimiyyəti vasitəsi ilə yerli idarəçilik özünü doğrultmur. Bu istiqamətdə çox əhəmiyyətli dəyişikliyə və bunun konstitusiyada təsbitinə ehtiyac var. Referendumun keçirilməsi dəqiqləşərsə bizdə bu prosesdə fəal şəkildə iştirak edəcəyik.

***- Yeni siyasi müstəvidə iqtidar-müxalifət dialoqunun daha yüksək mərhələyə çıxarılması önə çəkilir. Yeni mərhələdə iqtidar-müxalifət dialoqunun inkişafı prosesində vəziyyəti necə dəyərləndirərdiz?***

- İqtidar terminologiyasında bu yeni siyasi konfiqurasiya, yeni siyasi reallıq kimi dəyərləndirilir. Biz bu prosesdə iştirak edirik. Açığı, o prosesə inanmasaq və potensial olaraq onu bizim prinsiplərə hansısa formada uyğun hesab etməsək, iştirak etmərik. Bu o demək deyil ki, prosesin indiki vəziyyətindən razıyıq. Şübhəsiz, iqtidar bunu özünün maraq və mənafeyinə uyğunlaşdırmağa çalışır, müxalifət də bunu özünün maraq və mənafelərinə uyğun maksimalist şəkildə olmasını istəyə bilər. Ona görə də "dialoq" deyəndə bəziləri onu sərt qarşılayır. Mən dialoq sözünü çox şişirtməyin tərəfdarıyam. Dialoq məsələsi bizdə bir qədər hibrit vəziyyətdədir. Ona görə də mənim çıxışlarımda, bizim partiyanın da sənədlərində - "tam əhatəli, tam yetərli dialoqa keçək" çağırışları, təklifləri var.

Referendum məsələsi gündəmə gələcəksə və orada siyasi partiyaların ciddi iştirakı təmin olunacaqsa, "dialoq"dediyimiz məsələ də Azərbaycan siyasi partiyaları üçün yeni siyasi konfiqurasiya yaradacaq. O baxımdan iqtidaq-müxalifət dialoqunda iştirakın tərəfdarıyam və hesab edirəm ki, bunu Azərbaycan dövlətinin, cəmiyyətinin maraq və mənafeləri, geosiyasi situasiya diqtə edir.

2019-cu ilin sonundan bu dialoq prosesi başlayıb. Mənim fikrimcə, indiki vəziyyət hər halda ona qədər ki vəziyyətdən yaxşıdır. İrəliyə getmək üçün daha imkanlı situasiyadayıq. Amma "keyfiyyətcə yeni bir mərhələdirmi" soruşsanız, mən buna müsbət cavab verə bilmərəm. Bunun üçün dediyimiz referendum, konstitusiya dəyişiklikləri, deyilən məsələlərin reallaşması istiqamətində konkret real addımlara ehtiyac var.

***- Dediyiniz yetişən şərait müxalifət partiyalarının fəaliyyətində hansı addımları atmağı diqtə edir?***

- Mövcud durum siyasi partiyalar üçün tam əhatəli imkan və şərait yaratmır. Baxmayaraq ki, bu prosesə Müsavat, AXCP gəlməyib, onların bu prosesə qoşulması üçün səylər davam etdirilməlidir. Bu səylərin davam etdirilməsi üçün yuxarıda qeyd etdiyimiz bu dialoqun gündəminin, formatının müəyyən olunması, statusunun yüksəldilməsi istiqamətində addımlar atılmalıdır. Bu prosesi Prezident Administrasiyası aparır və mandat Prezident tərəfindən verilib. Bu faktın özü də mühümdür. Eləcə də biz təklif edirik ki, nazirliklərin, bir sıra idarələrin ictimai şuralarında siyasi partiyaların nümayəndələri olsun. Çünki indi ictimai şuralar işləmir. Bu dialoq prosesində ciddi bir stimul olardı. Eləcə də sosial problemllərin həllinə əhəmiyyətli fayda verərdi.

***- Necə hesab edirsiniz, niyə 50 partiyanın qəbul etdiyi dialoqu, AXCP, Müsavat partiyaları istəməsin və nəyə görə onların bu prosesə qoşulması üçün xüsusi səylər göstərilməlidir?***

- Mən bu məsələni müzakirə etmək istəmirəm. Ola bilər ki, gələcək zamanlarda aparılan müzakirələrdə öz fikrimi deyərəm....

***✍ Tahirə Qafarlı***



**Pənah Hüseyn,**
Xalq Partiyasının sədri

"

*Azərbaycan -Ermənistan münasibətlərinin nizama salınması, Qarabağla bağlı Azərbaycan xarici siyasətinin optimal olduğunu düşünürəm*

*Azərbaycana qarşı revanşizm şüarları ilə aparılan həmin aksiyalar ölkəmizdə müxalifətin başlaya biləcəyi oxşar aksiyaları tətikləyə bilməz*

*Bu prosesi Prezident Administrasiyası aparır və mandat Prezident tərəfindən verilib*

# Qarabağa "xaricilər"in səfəri



**Ermənistandan yayılan statisik məlumata görə, yanvar-iyun aylarına qədər 1 325 xarici vətəndaş Qarabağa səfər edib. Hər kəsə yaxşı bəllidir ki, xarici vətəndaşların Qarabağa qeyri-qanuni buraxılması faktları Azərbaycan tərəfindən pislənərək, məsələ həmin ərazilərdə yerləşən rus sülhməranlıları qarşısında ciddi şəkildə qaldırılıb. Prezident də dəfələrlə bildirib ki, Qarabağa xaricilərin səfərlərinin qarşısı alınmalıdır. Buna baxmayaraq, Ermənistan tərəfi belə bir statistik məlumat yaymaqdan çəkinmir.**

## Təxribat

"

*Azərbaycan "Laçın dəhlizi"nin statusu barədə xüsusi qanun qəbul etməlidir*

Maraqlıdır, xarici ölkə vətəndaşlarının Qarabağa səfərləri barədə məlumatların yayılması nəyə hesablanır? Bu fakt "Laçın dəhlizi"ndə yenidən Azərbaycanın gömrük postu, sərhəd buraxılış məntəqəsinin yaradılması zərurətini yaradırmı? Nəhayət, belə səfərlərin qarşısının alınması üçün hansı addımları ata bilərik?

■ **Politoloq Qabil Hüseynli hafta.az-a açıqlamasında bildirib ki, bu cür qeyri-qanuni səfərlər açıq-aşkar Azərbaycanın suveren hüquqlarına təcavüzdür.** Azərbaycanla razılaşdırılmadan xarici ölkə vətəndaşlarının Qarabağa daxil olması müharibədən sonra əldə olunmuş bütün razılaşmaların pozulması deməkdir. Politoloq bildirir ki, bu faktlar "Laçın dəhlizi"ndə Gömrük Postu, sərhədburaxılış məntəqəsinin yaradılması məsələsini bir daha aktuallaşdırır.

"Əks halda, bu əraziləri xarici ölkələrin ekspansiyasından qorumaq mümkün olmayacaq. Ona görə də Azərbaycan "Laçın dəhlizi"nin statusu barədə xüsusi qanun qəbul etməli, Azərbaycanın bütövlük və sərhəd mühafizə orqanlarının həmin ərazidə asayişi qoruması ilə bağlı müddəa xüsusilə qabarmalıdır".

Q.Hüseynli xarici ölkə vətəndaşlarının Qarabağa səfərlər etməsində məhz rus sülhməramlılarının özlərinin xüsusi iştirakı olduğunu qeyd edib. Onun sözlərinə görə, sülhməramlılar bu məsələdə ermənilərdən də fəal hərəkət edirlər.

" Sülhməramlılar Azərbaycanın suverenliyinə ziyan vurmaq üçün əllərindən nə gəlirsə onu edirlər. Nə qədər ki, sülhməramlılar bu bölgədə qalır, burada əmin-əmanlıq olmayacaq. Bu nöqteyi-nəzərdən mənə belə gəlir ki, birinci növbədə sülhməramlıların özlərini həmin ərazilərdən çıxarmaq lazımdır".

Politoloq sülhməramlı qüvvələrin üçtərəfli sazişə əsasən, 5 il müddətinə regiona gəldiyini qeyd etsə də, postsovet ölkələrində olan sülhməramlıların nəyə xidmət etdikləri hamıya bəllidir.

Onun fikrincə, müddətin bitməsinə 6 ay qalmış tərəflərdən biri sülhməramlıların çıxarılmasına etiraz edə bilər və yaxud fövqəladə bir vəziyyət baş verərsə, daha tez ərazidən çıxarıla bilər.

"Azərbaycan vaxtından əvvəl etiraz edib sülhməramlıları regiondan çıxarmalıdır. Bir sıra MDB ölkələrində - Abxaziya, Cənubi Osetiya, Dnestrayanı bölgələrdə proses gedir, belə tədbirlərin həyata keçirilməsi planlaşdırılır. Bir sözlə, Azərbaycan da sülhməramlıların bölgədən çıxarılmasına hazır olmalıdır". Q.Hüseynli bildirir ki, ermənilərin üçtərəfli sazişə, Azərbaycanın rəsmi mövqeyinə, etirazlarına məhəl qoymadan Qarabağa xarici vətəndaşların səfər etməsini belə həvəslə tirajlamasının arxasında xüsusi maraqlar gizlənir.

"Ermənilər bununla Qarabağda müstəqil dövlətlərinin olmasına iddia edir və təbliğ edirlər. Sanki bu müstəqil dövlət xarici ölkələr tərəfindən qəbul olunur, oraya gəlib-gedirlər, orada yaşamağa, təmas qurmağa çalışırlar. Xarici ölkə vətəndaşlarının gəlməsini qondarma respublikanın təbliği kimi təqdim etməyə çalışırlar".

***✍ Tahirə Qafarlı***

# "Sülh sazişinin imzalanması region üçün əhəmiyyətlidir"



**Rusiyanın xarici işlər naziri Sergey Lavrovla görüş zamanı "3+3" əməkdaşlıq platformasını, eyni zamanda, Türkiyə-Ermənistan və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşma prosesini müzakirə etdik.**

Bu barədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu rusiyalı həmkarı ilə birgə mətbuat konfransında bildirib. XİN rəhbəri qeyd edib ki, Azərbaycanla Ermənistan arasında əhatəli sülh sazişinin imzalanması region üçün əhəmiyyətlidir.

# Rusiya və Ukrayna arasında "taxıl müharibəsi"



**İyun ayının əvvəllərindən etibarən, "Ukrayna ilə Rusiya arasında indi də "taxıl müharibəsi" başlayıb", - desək yanılmarıq. Belə ki, Qara dənizdəki Ukrayna limanlarının bağlı qalması Ukraynada biçilən taxılın dünya bazarlarına çıxarılmasında ciddi əngəllər yaradır. Digər tərəfdən, Kiyev Kremli taxıl oğurluğunda ittiham edir. Beynəlxalq aləm isə dünyanın iki böyük taxıl ixracatçısı arasındakı bu gərginliyin qlobal aclığa və böhrana səbəb olacağından əndişəlidir.**



*"Rusiya heç bir şərt qoymur və taxılın Ukrayna limanları vasitəsilə ixracının təhlükəsizliyinə zəmanət verir*

■ **Məsələn, BMT-nin Ukrayna üzrə böhran koordinatoru Amin Avadın sözlərinə görə, dünyada 1,5 milyard insan Ukrayna taxılından, Rusiyanın ərzaq və gübrəsindən asılı olduğundan taxıl ixracını bərpa etmək üçün danışıqlar mümkün qədər tez başa çatdırılmalıdır.** "Dünyada bu ərzağa və gübrəyə ehtiyacı olan 1,5 milyard insan var. Ümid edirəm, danışıqlar həqiqətən problemsiz keçəcək və mümkün qədər tez başa çatdırılacaq, növbəti böhranla üzləşməmiş limanlar blokadadan çıxarılacaq və gübrə, ərzaq ixracı bərpa olunacaq", - diplomat bir neçə gün əvvəl Cenevrədə keçirdiyi brifinqdə bildirib.

■ **BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) iqtisadçısı Maksimo Toreronun proqnozlarına görə isə, Ukraynadakı böhran səbəbindən dünyada ərzaq çatışmazlığı və bahalaşma gözlənilir:** "Neft qiymətlərinin artması və gübrə ixracının bloklanması ilə ən pis ssenaridə, daha 13,7 milyon insanın qida çatışmazlığı riski ilə üzləşəcəyini gözləyə bilərik. Qarğıdalı və taxıl təkcə çörək hazırlamaq üçün deyil, həm də mal-qaranı bəsləmək üçün lazımdır. Onların bahalaşması məhsulun mayasında da özünü göstərir. Qida istehsalında yaranan çətinliklər 2023-cü ildə böhranın daha da pisləşməsinə gətirib çıxarır".

Ekspert qeyd edib ki, Ukraynada müharibə davam edərsə, daha 18 milyon insan qida çatışmazlığından əziyyət çəkə bilər. "Avropada Litva, Moldova, Serbiya, Finlandiya, Estoniya kimi ölkələr demək olar ki, Rusiya gübrələrinin tədarükündən asılıdır. Onlara İrlandiya, Norveç, Polşa, Şimali Makedoniya, Sloveniya da əlavə olunub", - FAO-nun aparıcı iqtisadçısı bildirib.

■ **İtaliyanın Xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maio bəyan edib ki, Ukrayna limanlarından taxıl ixrac edilməsə, Afrikada yeni müharibələr başlayacaq, yeni dövlət çevrilişləri olacaq və Avropaya miqrant axını olacaq.** "Ukrayna limanlarından dərhal taxıl ixrac etmək lazımdır. Əgər biz taxıl ixrac etməsək, Afrikada yeni müharibələr, yeni dövlət çevrilişi, terrorun yeni təzahürləri və Afrikadan Avropaya böyük miqrasiya axını olacaq. Biz buna icazə verə bilmərik", - deyə, o əlavə edib.

### Rusiya "taxıl oğrusu"dur

**Qeyd etdiyimiz kimi, artıq Kiyev Rusiyanın işğal etdiyi ərazilərdə biçilən Ukraynaya məxsus taxılı oğurlamaqda və rus taxılı adı altında dünya bazarlarına çıxarmaqda ittihamlayıb.**

Belə ki, bir neçə gün əvvəl "Reuters" agentliyi məlumat yayaraq Rusiyanın işğal etdiyi ərazilərdə ukraynalı fermerlərdən oğurladıqları taxıldan həmçinin Rusiyanın Suriyaya ixrac məhsulu kimi də istifadə etdiyini iddia edib. Məlumata görə, yük mayın sonundan Suriyanın əsas dəniz limanı Latakiyada lövbər salan Rusiyanın "Matros Pozniç" gəmisi ilə çatdırılıb.

"Refinitiv"in məlumatları da göstərir ki, "Matros Pozniç" gəmisi Krım yarımadasındakı Sevastopol şəhərinin limanında buğda ilə yüklənib və mayın 19-da yola düşüb. "Planet Labs PBC"nin peyk şəkilləri isə gəminin mayın 29-da Latakiyada sahilə yan aldığını göstərib.

Ukraynanın Beyrutdakı Səfirliyindən bildiriblər ki, ruslar Ukraynanın üç vilayətindən buğdanı toplayan müəssisədən buğda oğurlayırlar və bu, cinayət işidir.

Səfirlikdən əlavə edilib ki, onlar Suriya rəsmiləri ilə əlaqə saxlamağa çalışsalar da, cavab ala bilməyiblər: "Son üç ayda Suriyaya oğurlanmış 100 min tondan çox Ukrayna buğdası gətirilib. Beynəlxalq buğda qiymətlərinin bir ton üçün 400 ABŞ dollarından çox olduğunu nəzərə alsaq, bu həcm 40 milyon dollardan baha olmalı idi". "Reuters" məsələ ilə bağlı nə Suriyanın İnformasiya, Kənd Təsərrüfatı nazirliklərindən, nə də Latakiya limanından şərh ala bilib.

■ **Ukraynanın Türkiyədəki Səfiri Vasili Bodnar "Ukrinform" portalına müsahibəsində bildirib ki, Rusiya oğurlanmış Ukrayna taxılını Türkiyəyə satmaq üçün sxem hazırlayıb. Məhsullar əvvəlcə Rusiya Federasiyasının limanlarına daşınır, sonra isə saxta sənədlərlə satışa çıxarılır.**

"Təcavüzkarlar Ukrayna taxılını oğurlayır, avtomobil yolu ilə Sevastopola çatdırır, oradan Rusiya limanlarına göndərirlər, bundan sonra o, artıq saxta sənədlərlə, sanki Rusiya taxılıdır. Əgər bu, Sevastopoldan və ya Xersondan sənədlərlə daxil olubsa, heç kim bunu qəbul etməz. Guya onlar Krasnodar və ya Novorossiyskdən gətirilir, o zaman Türkiyə hakimiyyəti üçün heç bir pozuntu yoxdur. Bu, təhlükəli presedent yaradır. Biz Rusiya Federasiyasının bu cür hərəkətlərini dayandırmalıyıq", - Bodnar bildirib.

Səfirin sözlərinə görə, Ukrayna tərəfi hər bir taxıl oğurluğunu qeydə alır və sənədləşdirir. Kiyev, artıq Ankaraya Rusiya və üçüncü şəxslər tərəfindən oğurlanmış məhsulların, o cümlədən Türkiyə limanlarına qanunsuz ixracı üçün istifadə olunan gəmilərin siyahısını göndərib. Ankara bunu nəzərə alacağına və vəziyyətə baxacağına söz verib.

Bu məsələdə ən kəskin reaksiyanı isə ABŞ verib.

■ **"The New York Times"ın xəbərinə görə, ABŞ Prezidenti Cozef Bayden administrasiyası 14 dövlətin rəhbərliyindən Rusiyanın Ukrayna ərazisindən oğurladığı taxılı almamağı tələb edib. Məlumata görə, bura Afrikanın 10 ölkəsi, həmçinin Pakistan, Türkiyə, Banqladeş və Şri-Lanka daxildir.**

Qeyd olunub ki, söhbət 100 milyon dollar dəyərində 500 min ton Ukrayna taxılından gedir. Həmin taxıl Ukrayna ərazisindən quru yolu ilə Rusiyanın nəzarəti altında olan Krım yarımadasına daşınaraq orada gəmilərə yüklənib.

ABŞ Dövlət Departamenti bildirir ki, taxıl Kerç boğazından "Matros Koşka", "Matros Pozniç" və "Mixail Nenaşev" gəmiləri ilə Aralıq dənizinə daşınır. Qəzetin yazdığına görə, ABŞ-ın xəbərdarlığının təsir edəcəyi çox çətin olacaq: "Afrika dövlətləri ciddi aclıqla üzləşib. İkincisi, həmin ölkələr Rusiyaya daha çox üstünük verirlər".

*"Ukraynaya gəmi əleyhinə raket sistemlərinin tədarükü dəniz limanlarının açılmasının ən yaxşı təminatı olacaq*

### Putinin təklifi

**Moskva isə dünya birliyinin ona qarşı irəli sürdüyü ittihamlarla razılaşmır. Qlobal ərzaq böhranının yaranmasında əlinin olmadığını iddia edir. Məsələnin həddən artıq geniş müzakirələrə yol açdığını görən Kreml rəhbərliyi bu məsələyə ən yüksək səviyyədə reaksiya verməyi məcburiyyətində qalıb.**

Rusiya Prezdenti Vladimir Putin bildirib ki, ölkəsi Ukrayna taxılının maneəsiz ixracını təmin etməyə hazırdır. Putin Ukrayna taxılının Berdyansk limanı, o cümlədən Belarus vasitəsilə ixracının mümkünlüyünü açıqlayıb. "Rusiya heç bir şərt qoymur və taxılın Ukrayna limanları vasitəsilə ixracının təhlükəsizliyinə zəmanət verir. Ukrayna taxılının ixracının ən asan yolu Belarusdan keçir, lakin buna görə Minskdən sanksiyalar götürülməlidir", - Rusiya lideri deyib.

Moskvanın bəyanatları ilə atdığı addımlar bu dəfə də üstüstə düşməyib. İki gün əvvəl Rusiya silahlı qüvvələri Ukraynanın ən böyük taxıl depolarına zərbələr endirib.

■ **"Rusiya Ukraynanın Nikolayev şəhərində yerləşən böyüklüyünə görə ikinci taxıl terminalını məhv edib". BBC-yə xəbər verir ki, bunu Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrel bildirib.** "Rusiya Prezidenti Vladimir Putinin bu cür xəbərlər fonunda ünvanına irəli sürülən ittihamlardan yayınmaq məqsədilə yaydığı dezinformasiya daha nifrət yaradır", - o əlavə edib. Jozep Borrelin sözlərinə görə, Rusiya qondarma "taxıl blokadası" tələbindən ilk dəfə deyil istifadə edir.

■ **Rusiya ərzağı müharibə silahı kimi istifadə edir, taxılı oğurlayır, limanları blokadaya alır və əkin torpaqlarını döyüş meydanına çevirir. Bunu Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişel Avropa Parlamentində çıxışında deyib.**

O bildirib ki, hazırda Ukraynanın dəniz limanlarında 20 milyon tondan çox buğda, taxıl və qarğıdalı qalıb: "Bu dünya ərzaq təhlükəsizliyini təhdid edir və dünyanın müxtəlif ölkələrində aclığa və qıtlığa gətirib çıxarır".

Prezident Mişel qeyd edib ki, mayın 30-31-də Brüsseldə keçirilən fövqəladə iclasda bu ərzaq məhsullarının dünya bazarına çatdırılması üçün logistika imkanları müzakirə olunub. O deyib ki, qlobal aclıq hər kəsi narahat etməlidir və buna görə də bu məsələ hərtərəfli, kordinasiya edilmiş yanaşma tələb edir. "Biz "G7" daxilində, Afrik Birliyi ilə və digər tərəfdaşlarla bu məsələ üzərində işləyirik". O deyib ki, Kreml qlobal ərzaq təchizatını silaha çevirib. Aİ rəsmisi bu addımları Sovet İttifaqı ilə müqayisə edib.

"Rusiya hərbi gəmiləri, raketləri Ukrayna limanlarını blokadaya alaraq ərzağın ixracına imkan vermir, Rusiya tankları, topları və minaları Ukraynaya imkan vermir ki, əkinçilik və kənd təssərüfatı işlərini görsün". O vurğulayıb ki, Aİ Rusiyanın kənd təssərüfatı məhsullarına sanksiya tətbiq etməyib.

### Ukrayna çıxış yolları axtarır

**Baş verən proseslər fonunda Kiyev rəhbərliyi taxıl ixracını bərpa etmək üçün müxtəlif yollar axtarır.**

Belə ki, Ukrayna Prezidenti Volodimir Zelenski ilə Almaniya kansleri Olaf Şolts arasında telefon danışığı olub. Danışıqlar zamanı taxılın Ukraynadan, xüsusən də dəniz yolu ilə ixracını təmin etmək üçün



mümkün yollar müzakirə edilib.

Kansler Zelenskiyə mayın 28-də Rusiya və Fransa prezidentləri ilə apardığı telefon danışığı barədə məlumat verib. Bundan başqa, Zelenski və Şolts Ukraynadakı mövcud hərbi və humanitar vəziyyətlə bağlı söhbət edib, Ukraynaya dəstək yolları haqqında fikir mübadiləsini davam etdirmək və sıx əlaqə saxlamaq barədə razılığa gəliblər.

Ukrayna və Rusiya arasındakı böhranın aradan qaldırılmasında əsas vasitəçi rolunu isə yenə də Türkiyə üzərinə götürüb.

Dünən Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Ankaraya səfəri zamanı əsas müzakirə məsələlərindən biri də məhz limanlar vasitəsi ilə taxıl ixracına imkanın yaradılması olub.

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, Ukrayna taxılının dünya bazarlarına çıxarılması üçün BMT, Rusiya, Ukrayna və Türkiyənin iştirakı ilə plan mövcuddur. O qeyd edib ki, bu mexanizm Türkiyəni qane edir, lakin həm Rusiya, həm də Ukrayna tərəfinin də bu plana razılıq verməsi lazımdır.

Rusiya Ukrayna limanlarından çıxacaq taxıl yüklü gəmilərin təhlükəsizliyini təmin etməyə hazırdır. Bu barədə Rusiyanın xarici işlər naziri Sergey Lavrov deyib. O qeyd edib ki, Rusiya tərəfi bu məsələdə türkiyəli həmkarları ilə əməkdaşlıq etmək niyyətindədir. Bundan əlavə, o, Ukrayna tərəfinin limanları minalardan təmizləməli olduğunu da vurğulayıb.

Ukraynanın isə limanların açılması və təcridin aradan qaldırılmasına dair başqa planları var. Ukrayna prezidenti Volodimir Zelenski bəyan edib ki, Ukraynaya gəmi əleyhinə raket sistemlərinin tədarükü dəniz limanlarının açılmasının ən yaxşı təminatı olacaq.

"Biz gəmi əleyhinə sistemlər alacağıq. Bu, təhdid deyil. Bu gəmi sistemləri ən yaxşı zəmanət olacaq" - Ukraynanın dövlət başçısı vurğulayıb. Onun sözlərinə görə, Ukrayna taxıl ixrac etməyə hazırdır: "Amma bizə təhlükəsizlik dəhlizi lazımdır".

Görünən odur ki, tərəflər hələ də razılığa gəlməkdən çox uzaqdır, dünyada milyardlarla insanın taleyinə təsir göstərə bilən taxıl ixracı məsələsini siyasiləşdirmək hər iki tərəfin maraqlarına xidmət edir. Ukrayna Rusiyanı daha da nüfuzdan salmaq, Rusiya isə taxıl amilindən yararlanaraq üzləşdiyi ağır iqtisadi sanksiyaların aradan qaldırılmasına çalışır. Bu oyunda ən çox əziyyəti isə yenə də ərzaq təhlükəsizliyi təmin edə bilməyən ölkələrin vətəndaşları çəkir.

### Ekspert rəyi

■ **Elxan Şahinoğlu, "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri:**

- Rusiya Prezidenti Vladimir Putin son müsahibələrinin birində iddia edib ki, guya, o, Ukrayna taxılının dünya bazarlarına daşınmasına mane olmur. Halbuki, taxılı ixrac etmək üçün Ukraynanın dəniz limanlarından çıxış mümkün deyil. Rusiyanın hərbi gəmiləri Ukrayna limanlarını yaxın məsafədən nəzarətdə saxlayırlar. Bu limanlardan gəmilər çıxarsa, Rusiyanın hərbi gəmiləri tərəfindən saxlanılacaq.

Vladimir Putin Ukrayna dəniz limanlarının mühasirəsindən imtina etmək əvəzinə təklif edib ki, Ukrayna öz taxılını Belarus üzərindən ixrac etsin. Putinin ikinci təklifi isə odur ki, Ukrayna öz limanlarına yaxın əraziləri dəniz minalarından təmizləsin. Kiyev çətin ki, buna razılaşsın. Kremlə etibar yoxdur, dəniz limanlarının ətrafı minalardan təmizlənsə, Rusiyanın hərbi gəmiləri Ukraynanın liman şəhərlərinə, o cümlədən Odessaya hücuma keçə bilər.

Ankara bu məsələnin həllində də vasitəçiliyini təklif edib. Türkiyənin Rusiya, Ukrayna və BMT rəsmiləri ilə apardığı danışıqlar nəticəsində "taxıl dəhlizi"nin işə salınması ilə bağlı yol xəritəsi hazırlanıb. Tərəflər yol xəritəsinin detallarını müzakirə etmək üçün İstanbulda toplaşacaqlar. İstanbulda koordinasiya mərkəzi yaradılacaq. Məqsəd Ukraynanın ixrac üçün nəzərdə tutulan 20 milyon ton taxılının dünya bazarlarına çatdırılmasıdır.

Bu arada beynəlxalq təşkilatlar Dehliyə müraciət edərək, Hindistanın da taxıl ixracatına başlamasını istəyiblər. Misir Hindistana müraciət edərək bu ölkədən 500 min ton taxılın idxalına çalışır. Misir taxıl əvəzinə Hindistana sənaye məhsulları göndərməyə hazırdır. Misir dünyanən ən böyük taxıl alıcılarındandır. Misir hər il müxtəlif ölkələrdən 11-13 milyon ton taxıl idxal edir. Əsas idxalçıları da Rusiya, Ukrayna və Hindistandır. Birinci ikisiylə problemlər olduğundan Misir Hindistandan daha çox taxıl almağa ümidlidir.

Dehli taxıl ixracıyla bağlı hələ qərar verməyib. Hindistan hökuməti taxıl ixracatını quraqlıqla əlaqələndirib. Dehli 1 milyard 300 milyonluq əhalisini taxılla təmin etmək üçün birinci növbədə yerli ehtiyacları ödəməlidir. Halbuki, Hindistan bu il üçün ən azı 23 ölkəyə taxıl ixracı planlaşdırırdı.

✍ *Azad Əliyev*

# Hədəf Kəlbəcərdir

**Xəbər verildiyi kimi, Ermənistan hərbi qüvvələri Kəlbəcər istiqamətindən atəşkəsi pozur, təxribatlar törətməkdə davam edir. Ermənistan niyə məhz Kəlbəcər istiqamətində təxribatlar törədir? Kəlbəcərin hansı strateji üstünlüyünü "atəşə tutub" nəyə nail olmağa çalışır?**



## Müzakirə



**Elxan Şıxəliyev,**
hərbi ekspert

“

*Kəlbəcər bölgəsində kifayət qədər strateji və taktiki yüksəkliklər var*

*Ermənistan torpaq iddialarından əl çəkməlidir*

*Sərhədlər Cümhuriyyət dövrünün xəritələri əsasında müəyyənləşməlidir*

**Elxan Şıxəliyev, hərbi ekspert:**

- Bu, ya müdafiə tapşırıqlarını yerinə yetirən bölmələrin nizamsızlığı üzündən pozula bilir, ya da icazəli, yaxud göstəriş verildiyi halda baş verə bilər. Kəlbəcər istiqamətində Ermənistan tərəfdən atəşkəsin pozulması yalnız göstərişlə həyata keçirilir. Atəşkəs, həm də daxili siyasi vəziyyətlə əlaqədar komandirlərin siyasi rəhbərliyin deriktivlərini həyata keçirməkdən yayındıqları zaman da baş verir.

Əslində, Ermənistan üçtərəfli bəyanatın şərtlərinə əsasən atəşkəs rejiminə əməl etməlidir. Lakin atəşkəsin pozulması ilə Azərbaycan tərəfinə mesaj vermək istəyirlər ki, sülh sazişinin bağlanmasının və sərhədlərin delimitasiyasının, demarkasiyasının vaxtı çatmayıb. Əslində onlar buna hazır deyillər və bundan yayınmaq üçün atəşkəsi pozurlar və bununla da təməs xəttində Azərbaycan tərəfini də əks addım atmağa məcbur edirlər.

Sərhəd bölmələrində dislokasiya yerlərinin müəyyən olunması hər zaman yenilənir. Əgər hər hansı strateji yüksəklikdə mövqe tutmaq mümkündürsə, silahlı qüvvələrin bölmələri o mövqeləri tuturlar. Və yaxud, əvvəl tutulmuş mövqe varsa, onların yerlərini dəyişdirə bilirlər. Əslində, sonrakı proseslər sərhədlərin müəyyənləşməsinin başlanmasına qədər mövqelərin necə müəyyən edəcəyindən asılı olacaq.

Kəlbəcər bölgəsində kifayət qədər strateji və taktiki yüksəkliklər var və silahlı qüvvələrimiz öz mövqelərini müəyyən edirlərsə, bu böyük məsafələrdə müşahidə qabiliyyəti yaradır. Ermənistan atəşkəsi pozmaqla həmin strateji, taktiki yüksəkliklərdə hakim olmaq, mövqe dəyişmələrini atəşkəsin pozulması altında həyata keçirməyə çalışırlar. Ermənistan tərəfi atəşkəsi nə qədər pozsa da, üçtərəfli bəyanatın şərtlərinə əməl etməsə də, artıq bizim Silahlı Qüvvələrimiz bütün cəbhəboyu - Arazdan Murova qədər əməliyyat şəraitinə nəzarət edir. Yəni təmas xəttində baş verən bu kimi insidentlərin cavabı misli ilə verilir. Ermənilərin atəşkəsi pozması qarşılıqsız qalmır. Silahlı Qüvvələrimiz onun fərqindədirlər ki, hələ sərhədlərin delimitasiyası, demarkasiyası tam həyata keçirilmədən Ermənistan tərəfindən bu kimi addımlar atılacaq. Ona görə silahlı qüvvələrimiz də adekvat cavab verməyə hazırdırlar. Ermənilərin atəşkəsi pozmasına görə verilən cavablar daha çox onları narahat eləməlidir, nəinki bizi...



**Emin Həsənli,**
hərbi ekspert

**Emin Həsənli, hərbi ekspert:**

- Kəlbəcər Ermənistanla sərhəddə yerləşən Azərbaycanın çox əhəmiyyətli bir ərazisidir. Ermənistan məhz Kəlbəcəri işğal edəndən sonra Qarabağa ikinci yol açıldı. Birinci yol Laçın dəhlizi idi. İndi bu yolların hər biri Azərbaycan Silahlı Qüvvələrinin nəzarətindədir. Ermənistan dünənə qədər bəhanə edirdi ki, atəşkəsi Qarabağdakı qalan separatçılar pozur, onları "Arsax"ın qüvvələri adlandırırdılar. Amma indi birbaşa özü pozur. Bu, Ermənistan, Azərbaycan Rusiya arasında bağlanmış 9 noyabr 2020-ci il və 2021-ci il yanvar sazişinə, Avropada aparılan danışıqların ruhuna ziddir.

Ermənistan nə etmək istədiyini bilmir. Gah daxildə iğtişaş törədib, sonra da "Hər an müharibə ola bilər" iddiası ilə əhalinin fikrini yayındırmaq, gah da aksiyaçıları Azərbaycan Silahlı Qüvvələri ilə qorxudur. "Dəmir yumruq" onların başına elə dəyib ki, Ermənistanda gərginlik olan kimi atəşkəsi pozub diqqəti o istiqamətə yönəltməyə çalışırlar. Belə mesaj verirlər ki, hər an müharibə başlaya bilər və Azərbaycan ordusunun qarşısında dayana biləcək heç bir gücləri yoxdur.

Belə bir şəraitdə Ermənistanın bir çıxış yolu var. Ermənistan üzərinə götürdükləri öhdəlikləri yerinə yetirib, Azərbaycanla sülh müqaviləsi bağlayıb, ərazi bütövlüyümüzü tanıyıb normal münasibətlər qurmalıdır. Əks halda, Ermənistanın mövcudluğu sual altında olacaq. Hazırda xaricdə yaşayan ermənilər və daxildəki bəzi qüvvələr bu prosesə mane olurlar.

Bu mənada, Paşinyan ortaya konkret mövqe qoya bilmir. Tez-tez bir-birinə zidd fikirlərlə çıxış edir. Ona görə də Ermənistanın başqa bir alternativi yoxdur. Əks halda, "Dəmir yumruq" başlarına elə dəyəcək ki, bir daha özlərinə gələ bilməyəcəklər. 2020-ci ilin nəticələrini aradan qaldırmaq üçün Ermənistana 20-30 il vaxt lazımdır. Ermənistan bölgədə mövcudluğunu qorumaq istəyirsə, ağlını başına yığıb torpaq iddialarından əl çəkməlidir.



**Alp Arsalan İmamqulu,**
hərbi ekspert

**Alp Arsalan İmamqulu, hərbi ekspert:**

- Ermənistan ilə Azərbaycan arasındakı sərhədlərin delimitasiyası prosesinin bilərəkdən ləngidilməsi, xüsusi olaraq Kəlbəcərdə vaxtaşırı olaraq atəşkəs pozuntu hallarının olması, təbii ki, təsadüf deyil. Hazırda Kəlbəcərdə və Laçın istiqamətlərində çox əhəmiyyətli inşaat işləri gedir.

Təbii ki, logistika yollarının və yaşayış məntəqələrinin sərhəd boyunca sürətlə inşa edilməsi düşmənlərimizi narahat etməkdədir. Bu səbəbdən prosesi ləngitmək üçün bölgədə fəaliyyət göstərən tikinti şirkətlərinin təhlükəsizlik təminatını pozmağa cəhd göstərirlər. Sərhədlərin müəyyənləşdirilməsi prosesi Rusiyanın, dolayısı ilə onun hazırda Ermənistanda himayə etdiyi "kukla rejim"in maraqlarındaymış kimi görünməməkdədir.

Bütün hallarda Azərbaycan öz sülhpərvər mövqeyini sərgiləyir. Belə ki, Azərbayacan tərəfi sərhədlərin delimitasiya olması prosesinə ilk addımı atan bir ölkə olaraq gərəkli tədbirləri görməkdədir. Nəzərə almaq lazımdır ki, sərhədlərin delimitasiya olunması prosesi istənilən halda, gecikərsə və yaxud da tez bir zamanda reallaşarsa, bu Azərbaycanın marağınadır.

Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) varisidir və mütləqdir ki, bu xəritələr 1918-1920-ci il xəritələrinə görə delimitasiya olunmalıdır.

Xüsusən də Ermənistanı buna məcbur etmək üçün Azərbaycanın əlində yetərincə gərəkli istinadlar var. Bu da Ermənistanın Azərbaycanın tarixi torpaqlarında dövlət olmağa çalışdığı dönəmdən bu tərəfə törətdiyi qətliamlar, Azərbaycanın mədəni irsinə, tarixinə, iqtisadiyyatına vurduğu zərərlər və bunun bir təzminat davası olaraq hesablanmasını nəzərə alsaq, Ermənistan ciddi mənada bir sıra ərazilərindən vaz keçməyə məcbur buraxıla bilər.

Həm də mövcud Ermənistan Respublikasının əraziləri müstəqilliyimizdən bu tərəfə heç də ədalətli olaraq müəyyənləşdirilə bilməmişdi. Bu da müstəqilliyimizin ilk günlərindən daha yeni ərazilər əldə etmək həvəsi ilə, işğalçılıq əməllərini başlatması ilə əlaqədardır.

Bu gün Azərbaycan öz ərazilərini işğaldan azad etməklə yanaşı, bir varis olaraq AXC-nin sərhədləri istiqamətində də gərəkli addımlar atmağa müvəffəq olacaq. Bu gün bu məsələ ciddi mənada Ermənistanın havadarlarını, o cümlədən Ermənistanın "kukla rejim"ini narahat etməkdədir ki, onlar bu delimitasiya prosesini bir yolla əngəlləməyə çalışırlar. İstənilən halda Azərbaycan öz haqq davasına davam etməli və öz mirasına bağlı qalaraq sərhədlərini bərpa etməlidir.

✍ *Tahirə*



# Kreml kövrək sülh prosesinə sarsıdıcı zərbələr vurur

**"Qarabağın ərazisində qalan qanunsuz erməni silahlı birləşmələrinin hər hansı təxribat törədib-törətməməsindən asılı olmayaraq, hələ də ərazilərimizdə qalmalarının özü belə bir təxribatdır. Üstəlik, Ermənistandan idarə olunan qanunsuz erməni silahlı dəstələrinin Şuşa ətrafında törətdiyi təxribatlar bizim üçün gözlənilməz hal deyil. 44 günlük müharibədən keçən 1 il yarım ərzində belə hallarla tez-tez rastlaşırıq".**

Bunu hafta.az-a siyasi şərhçi Aydın Quliyev Şuşa şəhəri yaxınlığında sülhməramlıların gözü qarşısında Azərbaycan yük maşınının hərəkətinə mane olan erməni separatçılarının təxribatlarını təhlil edərkən bildirib.

A.Quliyev hesab edir ki, Şuşa ətrafında törədilən təxribatda Rusiyanın silahlı qüvvələrinin də hansısa formada iştirakı, yaxud buna izin verməyi də yeni bir hal deyil.

Onun sözlərinə görə, 10 noyabrda imzalanmış üçtərəfli sazişin ruhuna zidd olaraq Qarabağdakı erməni silahlı qüvvələrinin tərksilah edilməsi Rusiya sülhməramlılarının birbaşa vəzifəsi olsa da, bu günə qədər həmin vəzifəni icra etmirlər.

"Kremlin özündə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına manеə cəhdləri var. Qarabağda sülh missiyası altında fəaliyyət göstərməli olan sülhməramlılar, fürsət düşdükcə, ardıcıl şəkildə müəyyən pozuculuğa yol verirlər. Bəllidir ki, bu gün Rusiya Qarabağda sülhyaratma əməliyyatında konkret bir missiya ilə iştirak etməlidir. Əksinə, "RİA Novosti" timsalında Rusiyanın dövlət agentliyi separatçı qurumun təmsilçisinin geniş bir müsahibəsini yayımlayır və bilir ki, həmin müsahibə çox kövrək olan normallaşma prosesi, sərhədlərin müəyyənləşməsinə dağıdıcı təsir göstərə bilər. Buna baxmayaraq, Rusiyanın informasiya siyasətini müəyyənləşdirənlər bu təxribata gedirlər. Eyni zamanda nəzərə alsaq ki, son günlər Rusiya Dövlət Dumasının mötəbər şəxsi Konstansin Zatulin İrəvana gedərək, "Arsax" adında qondarma qurumun keçmiş, indiki rəhbərləri ilə danışıqlar aparır. Bu faktların qarşısında Rusiya sülhməramlılarının Şuşa ətrafında baş verən təxribatlarda adının hallanması bizim üçün qeyri-adi ola bilməz".

*Rusiya siyasi hakmiyyəti özünün məsuliyyətini dərk etməlidir*

Bütün bunlarla yanaşı A.Quliyev hesab edir ki, Kreml hakimiyyəti özünün nə qədər ağır məsuliyyət altında olduğunu dərk etməli və Azərbaycanın, Türkiyənin birgə səyləri ilə başlatmış olduğu çox kövrək sülh prosesinə sarsıdıcı zərbələr vurduğunun fərqində olmalıdırlar.

"Nə qədər ki, informasiya sahəsində təxribatlar var, nə qədər ki , sərhədlərin müəyyənləşməsi, sülh sazişinin imzalanması üzrə danışıqlara fundamental şəkildə başlamaq mümkün olmur, belə vəziyyətdə hətta adi informasiyalar və bu cür təxribatlar proseslərə sarsıdıcı zərbə vurur. Ona görə də birinci növbədə Rusiya siyasi hakmiyyəti özünün məsuliyyətini dərk etməlidir. Ermənistan onsuz da sülh prosesində maraqlı deyil. Ermənistanda elə ideyalar ortaya qoyurlar ki, bütünlüklə danışıqlar prosesini pozmaq gücünü nümayiş etdirir. Məsuliyyət həm də Ermənistanın üzərindədir. Rusiya sülhməramlıları Ermənistandan idarə olunan qanunsuz birləşmələrlə bir sırada görünür".

✍ *Tahirə*



**■ Qazaxda yetkinlik yaşına çatmayan şəxsin erkən nikaha daxil olmasının qarşısı alınıb. Bu barədə hafta.az-a Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətinin Gəncə regional qrupunun baş inspektoru Eşqin Qasımov bildirib.**

Xəbərə görə, Qazax rayon Polis Şöbəsinə rayonun Kosalar kəndində yetkinlik yaşına çatmayan şəxsin ailə qurması və bununla bağlı toy mərasimi keçiriləməsi barədə məlumat daxil olub. Polis əməkdaşları dərhal həmin ünvana gələrək mərasimin keçirilməsini dayandırıb.

Hər iki tərəfin valideynləri ilə profilaktiki söhbət aparılıb və bildirilib ki, yeniyetmə vaxtlarında qızların ailə qurması onların gələcəkdə fiziki və mənəvi sağlamlığı üçün ciddi təhlükə törədə bilər.



**■ İkinci Qarabağ müharibəsində Gəncədə dağılan evlərin bərpası və yenidən inşasına növbəti dəfə vəsait ayırılıb.**

Ərazi Tikinti-Planlaşdirma Mərkəzi Gəncə şəhərində dağıdılmış, qəzalı vəziyyətə düşmüş, təmir və bərpaya ehtiyacı olan fərdi yaşayış evləri və qeyri-yaşayış obyektlərinin tikintisi, təmir və bərpası işlərinin satınalınması üzrə növbəti tenderin nəticəsini açıqlayıb.

Qurum tenderin qalibi olaraq "İNŞAAT SERVİS-2" MMC-ni seçib və şirkətlə 2 milyon manatlıq müqavilə imzalanıb. Müqaviləyə əsasən, şirkət sentyabr ayının 1-nə kimi təmir-bərpa və yenidənqurma işlərini yekunlaşdırmalıdır.



**■ Rusiya və Ukrayna təkrar danışıqlar çərçivəsində bir araya gəlmək istəsə, Türkiyə yenidən bu məsələdə asanlaşdırıcı rol oynayaraq üzərinə düşəni edər.**

Bu barədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu deyib. "Biz Rusiya və ya Ukraynanı məmnun etmək üçün addımlar atmırıq. Verdiyimiz qərarlar Rusiyanı narahat edir. Digər tərəfdən isə Ukrayna bizim Rusiyaya qarşı sanksiyalara qatılmamağımıza görə narazı ola bilər, amma bu bizim obyektiv siyasətimizdir. Nəticədə isə müharibəni dayandıracaq və diplomatiya yoluna geri döndürəcək addımların atılmasını daha doğru bilirik", - Çavuşoğlu deyib. O qeyd edib ki, Türkiyə Rusiya və Ukrayna liderlərinin görüşünə də ev sahibliyi etməyə hazırdır.



**■ Zelenski Putinlə görüş xatirinə görüş istəyir. O, gündə bir fikrə düşür. Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ankarada türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə danışıqlarının yekunlarına dair birgə mətbuat konfransında bildirib.**

"Zelenski bəyan edib ki, danışıqları Rusiya öz hərbi kontingentini 24 fevrala qədərki xəttə geri çəkərsə, bərpa edəcək. Bu, tamamilə qeyri-ciddi yanaşmadır. Bu, həm də İstanbulda martın 29-da Ukrayna nümayəndə heyətinin irəli sürdüyü təşəbbüslərlə ziddiyyət təşkil edir. Bu cür bəyanatları biz hər gün dəfələrlə müşahidə edirik. Hesab edirik ki, danışıqlar komandasının işini bərpa etmək üçün top iki aya yaxındır ki, Ukrayna tərəfindədir.



**■ Ali Məhkəmədə Yevlax rayon icra hakimiyyətinin həbsdə olan sabiq başçısı Qoca Səmədov barəsində olan apellyasiya məhkəməsinin qərarından verilmiş kassasiya şikayətinə baxılıb.**

Hakim Tahir Kazımovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərara əsasən, sabiq icra başçısına Cinayət Məcəlləsinin 313-cü (vəzifə saxtakarlığı) maddəsi ilə verilmiş ittiham ləğv olunub. Bununla bağlı Qoca Səmədovun cəzası 3 ay azaldılaraq 5 il 9 aya endirilib. Xatırladaq ki, Qoca Səmədov 2019-cu ildə Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən xüsusi əməliyyatla saxlanılıb.



**■ Bakı Şəhəri üzrə Təhsil İdarəsi Təlimə Dəstək Mərkəzi tərəfindən 2021-2022-ci tədris ilində 20 məktəbin İnkişaf Planı hazırlanıb. Bu barədə hafta.az-a Bakı Şəhəri üzrə Təhsil İdarəsindən məlumat verilib.**

Qeyd edilib ki, inkişaf Planı hazırlanan məktəblərin kollektivləri ilə görüşlər keçirilib. "Görüşlərdə TDM-in metodistləri məktəblərdəki real vəziyyətlə tanış olmaq üçün dərs müşahidələri aparıb, təlim-tərbiyə prosesinin inkişafına yaxından dəstək göstərmək məqsədilə məktəb kollektivi ilə müzakirələr təşkil ediblər. Qeyd edək ki, inkişaf planlarının hazırlanması növbəti mərhələlərdə digər məktəblərdə də davam etdiriləcək", - deyə əlavə edilib.

# Liseylərə qəbul imtahanları

***Ötən aydan etibarən, ölkə üzrə bir sıra lisey və gimnaziyalara 2022-2023-cü tədris ili üçün şagird qəbulu prosesinə rəsmən start verilib. Şagirdlər əvvəlcə mərkəzləşdirilmiş qəbul imtahanında iştirak edəcək, sonra isə topladıqları bala müvafiq olaraq təhsil almaq istədikləri lisey və ya gimnaziyaların seçimini aparacaqlar. İmtahan zamanı şagirdlərə Azərbaycan dili və riyaziyyat fənləri ilə yanaşı, riyazi məntiq biliklərinin yoxlanılması məqsədi ilə tapşırıqlar təqdim ediləcək. Lisey və gimnaziyalara siniflər üzrə imtahan tarixləri aşağıdakı kimidir:***



## İmtahan

• 17 iyun - V siniflərə qəbul (hazırda IV sinifdə oxuyanlar üçün);
• 18 iyun - VI siniflərə qəbul (hazırda V sinifdə oxuyanlar üçün);
• 19 iyun - VII siniflərə qəbul (hazırda VI sinifdə oxuyanlar üçün);
• 20 iyun - VIII və IX siniflərə qəbul (hazırda VII və VIII sinifdə oxuyanlar üçün).

Mərkəzləşdirilmiş qaydada qəbul prosesi keçiriləcək lisey və gimnaziyaların siyahısı ilə müvafiq linkə keçid edərək tanış ola bilərsiniz.

Mərkəzləşdirilmiş qaydada qəbul prosesi keçiriləcək lisey və gimnaziyalar

Dövlət hesabına yataqxana və gündə 3 dəfə isti yeməklə təmin olunan lisey və gimnaziyalar:

• Bakı şəhəri S.C.Pişəvəri adına Respublika humanitar fənlər gimnaziyası;
• Bakı şəhəri A.S.Makarenko adına Respublika humanitar fənlər təmayüllü gimnaziya;
• Bakı şəhəri S.Bəhlulzadə adına xarici dillər təmayüllü Respublika gimnaziyası;
• Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü lisey;
• Bakı şəhəri Kimya-biologiya təmayüllü Respublika liseyi;
• Şəki şəhəri Kimya-biologiya təmayüllü lisey;
• Şəmkir şəhər Kimya-biologiya təmayüllü lisey;
• Şirvan şəhər Kimya-biologiya təmayüllü lisey;
• Quba şəhər Fizika, riyaziyyat və informatika təmayüllü lisey;
• Gəncə şəhər Fizika, riyaziyyat və informatika təmayüllü lisey;
• Şəmkir şəhər Kimya-biologiya təmayüllü lisey;
• Ağdaş şəhər M.Şeyxzadə adına humanitar və təbiət fənləri təmayüllü gimnaziya;
• Biləsuvar şəhər texniki fənlər təmayüllü məktəb-lisey;

> *"Vahid qəbul keçirilsə, yaranmış bütün problemlər aradan qalxar*

• Gəncə şəhər Xarici dillər təmayüllü gimnaziya

Digərləri:

• Bakı şəhəri Lütfi Zadə adına texniki-humanitar lisey;
• Bakı şəhəri 2 nömrəli texniki-humanitar lisey;
• Bakı şəhəri 147 nömrəli texniki-humanitar lisey;
• Bakı şəhəri 291 nömrəli "Ekologiya" liseyi;
• Bakı şəhəri 16 nömrəli texniki-humanitar lisey;
• Bakı şəhəri S.Rüstəm adına xarici dillər təmayüllü gimnaziya;
• Ağstafa şəhər texniki-humanitar təmayüllü lisey;
• Şamaxı şəhər texniki, humanitar və təbiət təmayüllü lisey;
• Oğuz şəhər E.Abdullayev adına 2 nömrəli tam orta məktəb

Burada şagirdlər və valideynlər üçün ciddi narahatlıq doğuran bir məqam var. Belə ki, şagirdlər imtahandan uğurlu nəticə qazanıb yuxarıda adları qeyd olunan liseylərdən birinə qəbul edilərlərsə, Təhzsil Nazirliyinin tabeliyində olmayan digər liseylərə qəbul imtahanlarında da yüksək bal toplayaraq onlara qəbul olunacaqları halda əvvəlki seçimlərindən imtina edə bilmirlər.

Halbuki hər iki liseyin qəbul imtahanları arasında bir xeyli vaxt olur və məktəbli iki imtahanda da iştirak etmək hüququna malikdir. Lakin Təhsil İnstitutu tərəfindən elektron sistemdə seçimini dəyişmək istəyən şagirdlərin valideynlərinə artıq mərkəzləşdirilmiş qaydadada imtahan keçirilən liseylərin yen tədris ili ilə bağlı kontingentinin təsdiqləndiyi, şagirdin yerdəyişməsinin bu prosesə manəə yaratdığı bildirilir. Qeyd edək ki, analoji vəziyyət keçən il də yaşanıb. Çoxsaylı şikayətlərdən sonra Təhsil İnstitutu şagird yerdəyişməsinə imkan yaradıb. Valideynlər bildirirlər ki, belə halların yaşanması uşaqların təhsil hüquqlarının pozulması deməkdir. Bəs görəsən, liseylərə qəbul imtahanları niyə eyni gündə keçirilmir? Yaxud da şagirdlərə azad seçim hüququ niyə verilmir?

■ **Məsələ ilə bağlı hafta.az-a açıqlama verən təhsil eksperti Elçin Əfəndi söylədi ki, prosesdə bir xeyli çatışmazlıqlar var. Bunun əsas səbəblərindən biri isə odur ki, bəzi liseylər özəl təhsil müəssisələridir:**

"Onların hər birinə qəbul liseyin özünün həyata keçirdiyi imtahan yolu ilə aparılır. Vahid qəbul keçirilsə, yaranmış bütün problemlər aradan qalxar. Əgər bir şagird orta məktəbdə təhsil alırsa və bu təhsil müəssisəsi Bakı Şəhər Təhsil İdarəsinin tabeliyindədirsə, liseyə qəbul imtahanında iştirak edib qəbul olmadığı halda, yenidən məktəbə geri qayıda bilməyinə imkan yaradılmalıdır. Burada təhsil haqqında qanunvericilik və dövlət başçısının prioritet məsələ kimi daima vurğuladığı təhsilin əlçatanlığı prinsipi əsas götürülür.

Liseyə qəbul oluna bilməyən şagirdi məktəb yenidən tədrisə qəbul etməlidir. Bunun üçün xüsusi çıxarışa ehtiyac olmamalıdır. Məsələnin həlli üçün ilk növbədə Təhsil Nazirliyi müvafiq qərarlar verməlidir. Düşünürəm ki, bu il də liseylərə qəbul ötən ilki kimi baş tutacaq. Bu sahədə hər hansı dəyişiklik nəzərdə tutulmayıb".

✍ *Banu*




# İrəvanın "dəhliz oyunu"

**Ermənistan revanşist xülyalarından əl çəkmir. Erməni rəsmilər Moskva, Brüsselin vasitəçiliyi ilə keçirilən Azərbaycanla münasibətlərin normallaşmasına yönəlik danışıqlar prosesinin nəticələrinə təsir etməyə çalışır, regionda gərginliyi saxlamaq niyyətlərini ortaya qoyurlar. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Brüssel danışıqlarına kölgə salmaq cəhdləri açıq şəkildə görünür.**



**Elman Nəsirov,**
Millli Məclisin deputatı

## Aktual

> *"Ermənistan parlamenti danışıqların üstündən xətt çəkmək üçün cəhdlər edəcək*

Belə ki, Mirzoyan yerli medianın ona ünvanladığı "İlham Əliyev dedi ki, Brüsseldə Naxçıvanı Azərbaycanla birləşdirən dəhlizin Meğridən keçəcəyi ilə bağlı razılıq əldə olunub" deyimin" "Biz Ermənistanın mövqeyini daim müəyyən edirik. Ermənistan ərazisində hər hansı dəhlizin mövcudluğu istisna olunur", - deyə cavab verib.

Ermənistan rəsmisinin bu cür çıxışları nəyə yönəlikdir və Azərbaycan hansı alternativ addımlar ata bilər?

■ **Millli Məclisin deputatı Elman Nəsirov məsələ ilə bağlı hafta.az-a açıqlamasında bildirib ki, Ermənistan tərəfi Zəngəzur dəhlizinin açılmasına süni şəkildə manecilik törədir. Onun sözlərinə görə, Azərbaycanın alternativ imkanları var və İran ərazisindən keçməklə Naxçıvanla quru yol bağlantısını həyata keçirə bilər.**

E.Nəsirov bildirir ki, A.Mirzoyanın nə deməsindən asılı olmayaraq, 22 may tarixində Brüssüldə keçirilən üçtərəfli danışıqlar prosesində Paşinyan növbəti dəfə Azərbaycanın irəli sürdüyü 5 baza prinsipini qəbul etdiyini deyib. "Bu prinsiplərdə kommunikasiyaların bərpası və Zəngəzur dəhlizinin işə salınması məsələsi də yer alır. Ermənistan siyasi rəhbərliyinin bu barədə məlum mövqeyi var və Avropa İttifaqı rəhbəri onun hər bir fikrini qeydə alıb. Bütün beynəlxalq birlik və təşkilatlar, beynəlxalq ictimaiyyət də bu reallığı qəbul edir. Azərbaycan Prezidenti cənab İlham Əliyev söyləyib ki, Mehridən keçməklə Zəngəzur dəhlizinin reallaşması haqqında razılaşma var. Bunlar hamısı bəlli məsələlərdir".

E.Nəsirov hesab edir ki, Ermənistanın Baş naziri Nikol Paşinyanın, xarici işlər naziri Ararat Mirzoyanın əvvəl verdikləri bəyanatları təkzib edən növbəti məlum əks bəyanatları bu günlər Ermənistan parlamentində cərəyan edən çox gərgin proseslərlə bağlıdır.

"Bu gün Ermənistan parlamentində çox qəliz, mürəkkəb proseslər gedə bilər. Faktiki olaraq Moskva, Soçi, Brüsseldə keçirilmiş danışıqların üstündən xətt çəkilməsinə yönələn addımların atılmasına cəhdlər olacaq. Ermənistanın radikal müxalifəti bunu açıq şəkildə bəyan edib. Bütün bu reallıqlar fonunda Paşinyan və onun xarici işlər naziri öz verdikləri bəyanatları yumşaltmaq üçün münevrlər edirlər". E.Nəsirov bir həqiqətin olduğunu deyib: bu da ondan ibarətdir ki, əməkdaşlığın əksi yoxdur və bu yalnız müharibə ola bilər. Bu da Ermənistan üçün sonun başlanğıcı deməkdir.

"Ona görə də Ermənistan sadəcə vaxtı uzada bilər, necə ki, il yarımdır uzadır. Amma bunun da sonu var... Bu zaman məsələsidir, 5 baza prinsipi qəbul edilib, sərhəd komissiyları yaradılıb, iclaslar keçirilib. Növbəti iclas Moskvada, daha sonra Bürüsseldə baş tutacaq. Bu istiqamətdə proses gedir və onun qarşısını almaq qeyri-mümkündür". Deputat hesab edir ki, Zəngəzur dəhlizi açılmasa Laçın dəhlizinin bağlanması məsələsi də gündəmə gələ bilər. Eyni zamanda vurğulayıb ki, Azərbaycan Prezidenti sayca 27-ci Beynəlxalq Neft - Qaz sərgizində etdiyi çıxışında daha qətiyyətli fikirlər bildirib. Deyib ki, nəinki Zəngəzur dəhlizi işə düşəcək, həttə o dəhlizlə elektrik enerjisi də idxal ediləcəkdir.

✍ *Tahirə*

# Şahbaz Quliyevlə bağlı hazırlanan materiallar...

**Erməni əsirliyində qalan və orada müxtəlif işgəncələrə məruz qoyulmuş Şahbaz Quliyevin ölkənin içindən yayılanan müxtəlif yutub kanallarında çılğın çıxışları sosial ictimaiyyətdə birmənalı qarşılanmayıb. Mətbuat Şurası İdarə Heyətinin üzvü Azər Həsrət hafta.az-a açıqlamasında bildirib ki, belə "kanallara" qarşı hər hansı ölçülərin götürülməsi Mətbuat Şurasının vəzifəsi deyil.**



> *"Şahbaz Quliyevdən istifadə edib Azərbaycanda stabilliyi pozmağa və ölkəmizin adını dünya insan hüquqları sferasında pis tərəfə çıxarmaq istəyən qüvvələr var*

O qeyd edib ki, Mətbuat Şurası vətəndaşlarla, məmurlar, media arasında münaqişələrin məhkəmədən kənar həlli üçün qurulub. Bu qurum yalnız bəzi məsələlərlə bağlı ümumi ekspert rəyi, yaxud tövsiyələr vermək imkanında olsa da, kanalların bu fəaliyyətinə müdaxilə edib əks tədbirlər görə bilməz. Media eksperti bu mənada üzv olduğu qurumun əl-qolunun bağlı olduğunu deyib. A.Həsrət hesab edir ki, bəzi onlayn "kanallar" uzun illərdir ki, məqsədli şəkildə Azərbaycana qarşı daxildə çaxnaşma yaratmaq, dövlət maraqlarını gözdən salmaq üçün çalışır. Ona görə də bu cür neqativ çıxış edən şəxslər belə kanallara rahat şəkildə çıxa bilirlər.

"Təəssüflər olsun ki, o kanalların izləyiciləri də bəzən həddən artıq çox olur. Bu da ictimai rəyə öz mənfi təsirini göstərir. Ona görə də düşünürən ki, dövlət bu kimi təzahürlərin qarşısını almaq üçün "ifadə, media azadlığı" prinsiplərini pozmadan hərəkətə keçməlidir". A.Həsrət belə hallara qarşı hansı tədbirlərin görülməsi ilə bağlı konkret fikirlər səsləndirməyin çətin olduğunu və müzakirələrə ehtiyac duyulduğunu deyib.

"Azərbaycan mediası, dövlətin müvafiq qurumları bir araya gəlib məsələni müzakirə etməlidir ki, antiazərbaycan fəaliyyətinə köklənmiş onlayn media, xüsusilə də yotub kanalları ilə nə etməyin mümkün olduğunu müəyyən etsinlər. Elə edilməlidir ki, görülən tədbirlər beynəlxalq prinsiplərdə Azərbaycanın götürdüyü öhtəliklərə zidd olmasın. A.Həsrət yutub kanallarında dövlətə qarşı neqativ açıqlamaları ilə gündəmə gələn Şahbaz Quliyevi izlədiyini bildirib. Və hesab edir ki, dövlətə, millətə, vətənə bağlı olan adam başına nə iş gəlsə də bu cür açıqlamalar verməməlidir.

"Təəssüflər olsun ki, biz o adamdan belə davranışı görə bilmirik. Eləcə də bu gün nə qədər media, ifadə azadlığı prinsiplərinə söykənsək də, onlayn kanallar, digər media seqmentləri şikayətçini dinləyərkən ona da bir ölçü ilə yanaşmalıdır. Nəzərə almalıyıq ki, biz bir jurnalist olmaqdan qabaq, həm də vətəndaşıq. Dövlətimizin milli maraqlarını düşünən insanlarıq. Kimsə çıxıb ağzına gələni danışacaqsa, biz ona efir verməli deyilik. Bu, düzgün deyil. Həmin yutub kanalını idarə edənlərin özləri də düşünməlidir ki, hər yoldan ötənə bu cür efir verməli olmaz. Belə çıxışlar Azərbaycanın milli dövlət maraqlarına zərbə vurur. Baxın, bu gün Şahbaz Quliyevlə bağlı hazırlanan materiallar Ermənistanda qəzet manşetləridir. Düşmənlərimiz bu cür materialları sağa-sola tirajlayırlar. Bunu beynəlxalq təşkilatlara, beynəlxalq mediada yayırlar. Bütün bunlar Azərbaycan dövlətinin, burda iqtidar-müxalifət məsələsi yoxdur, hər birimizin əleyhinə işləyir. İnsan düşünməlidir ki, kimə efir verirəm və nə üçün verirəm. Bu efir nəticədə mənim dövlətimə və millətimə hansı zərər vura bilər".

A.Həsrət birmənalı olaraq hesab edir ki, Şahbaz Quliyevdən istifadə edib Azərbaycanda stabilliyi pozmağa və ölkəmizin adını dünya insan hüquqları sferasında pis tərəfə çıxarmaq istəyən qüvvələr var.

Onun fikrincə, o cür kanallar, özəlliklə də xaricdən idarə olunan onlayn kanalların əksəriyyəti Azərbaycan əleyhinə qurulub. Azərbaycan əleyhinə olduqlarına görə Şahbaz Quliyev kimi adamları milli-dövlət maraqlarına zidd açıqlamalarını geniş şəkildə tirajlayırlar.

✍ *Tahirə*

# İstifadəyə yararlı və yararsız çimərliklər



**Abşeron yarımadasında və sahilyanı ərazidə yerləşən çimərliklərin monitorinqi aparılıb. Bunu Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin şöbə müdiri Ziyəddin Kazımov "Çimərlikdə dəniz suyunun monitorinqi" mövzusunda danışarkən deyib.**

O bildirib ki, monitorinqlər Bakı şəhərində yerləşən 7 rayonu əhatə edib: "Eyni zamanda respublikanın cənub və şimal zonalarında və Sumqayıtda da monitorinqlər həyata keçirilib. Əsasən çimərlik ərazisində dəniz suyunun 3 nöqtəsindən - mərkəzi, sağ və sol - nümunə götürülüb. Bağırsaq çöplərinin miqdarı müəyyən olunur. Bu standartdan yuxarı olursa, insanlarda xəstələnmə hallarına səbəb ola bilər. Çirklənməyə əsas səbəb məişət-çirkab suları heç bir təmizləmə aparılmadan dənizə buraxılmasıdır".

Şöbə müdiri deyib ki, iyunun 10-15-də monitorinqlərin nəticələri barədə geniş məlumat veriləcək. Ziyəddin Kazımov qeyd edib ki, aparılan monitorinqlərin nəticəsinə görə, Xəzər və Binəqədi rayonu ərazisindəki çimərliklərdən vətəndaşların istifadə etməsi məqsədəuyğundur. O vurğulayıb ki, Qaradağda Sahil, Səbaildə Şıx, Hövsan və Türkan çimərliklərindən vətəndaşların istifadə etməsi məqsədəuyğun sayılmır.

# Kinomuzun iki ağası

**Ötən günlərdə Xalq artisti Rasim Balayev Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) sədri seçilib. Xatırladaq ki, hazırda Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqı da fəaliyyətdədir, buranın sədri isə Xalq artisti Şəfiqə Məmmədovadır. Hər iki qurum ayrılıqda kino sahəsinin inkişafı, kinematoqrafiyanın rifahı üçün çalışsa da, zaman-zaman mətbuatda bir sıra müzakirələrə səbəb olur. Hazırda durğunluq dövrü yaşayan Azərbaycan kinosunun daha da keyfiyyətli ərsəyə gətirilməsi lazımkən, bu sahədə niyə vahid orqan yaradılmır?**



## Mədəniyyət

Məlumat üçün deyək ki, Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKI) 11 yanvar 1963-cü ildə Respublika Kinematoqrafiya İşçilərinin I Təsisat Qurultayında yaradılmışdır.

Bura ölkənin peşəkar yaradıcı kino işçilərini könüllü əsaslarla birləşdirən ictimai təşkilatdır. İttifaqın əsas məqsədi milli kinonun, milli mədəniyyətin və dünya kinosunun əsas hissəsi olaraq inkişaf etdirilməsidir.

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının tarixi isə yaxın keçmişə, 2012-ci il iyunun 21-nə təsadüf edir. İttifaq "Nizami" Kino Mərkəzində "Kino və konseptual problemlər" mövzusunda keçirilmiş tədbirdə yaradılıb. İttifaq tərəfindən "Milli Kino Mükafatı" təsis olunub. Mükafat hər il 2 avqust - Kino Günündə Azərbaycan kinosuna verdiyi töhfələrə görə fərqlənən kinematoqrafçıya təqdim edilir.

> *"Hesab edirdim ki, Rüstəm İbrahimbəyov vəfat edəndən sonra, Azərbaycan Kinematoqrafçılar İttifaqı bizim İttifaqla birləşdiriləcək və Əlisa Cabbarov katib olacaq*



**Aydın Kazımzadə,**
kinoşünas

■ **Qurumların ayrılıqda və ortaq fəaliyyəti, gələcəkdə birləşdirilməsi mövzusuna gəldikdə isə bununla bağlı suallarımızı kinoşünas Aydın Kazımzadə cavablandırdı. O bildirdi ki, mövzu ilə əlaqədar daha əvvəlki açıqlamalarına görə başı qalmaqaldadır:** "Rasim Balayevə müraciət ediblər ki, Aydın sənin haqqında "Rasim böyük sənətkardır, ancaq kino təşkilatçısı deyil", - sözlərini işlədib. Doğrudan da R.Balayev böyük sənətkardır, ancaq həmin vəzifə onluq deyildi".

Kinoşünas bildirdi ki, yaxşı sənətkar olmaq, heç də yaxşı təşkilatçı və sədr olmaq demək deyildir. Bu səbəbdən, AKİ-nin sədri Əlisa Cabbarov seçilsəydi, daha məqsədəuyğun olardı:

"Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri böyük insan, kinematoqrafçıların anası Şəfiqə Məmmədovadır. Digər qurumda isə katib vəzifəsində çalışan Əlisa Cabbarov var. Fikrimcə, Əlisa Cabbarovu katib vəzifəsinə gətirsəydilər, daha məqsədəuyğun olardı. Rüstəm İbrahimbəyovun qurumdakı bütün işlərini elə Ə. Cabbarov idarə edirdi.

Bilirsiniz necədir, sənətkar olmaq ayrı şeydir, ancaq işləri həyata keçirmək tam başqa vəzifədir. Bunun da öhdəsindən Ə.Cabbarov çox yüksək peşəkarlıqla gəlirdi. Baxmayaraq ki, mən Şəfiqə xanımın ittifaqındayam və bununla fəxr edirəm, amma görülən bütün müsbət işləri qiymətləndirmək lazımdır".

Vahid qurumun formalaşdırılması məsələsinə gəldikdə isə kinoşünas söylədi ki, bu, sonda dövlətin qəbul edəcəyi qərardır. Bu sahədə iki ayrı ittifaqın fəaliyyəti inkişafa mane deyil:

"Qurumların birləşdirilib-birləşdirilməməsi məsələsi bizim yox, dövlətin biləcəyi işdir. Orada işləyənlər də azərbaycanlılardır, ölkəmizə xidmət göstərirlər. Hər iki qurum müsabiqələr keçirir və çalışır ki, Azərbaycan kinosu inkişaf etsin. Mən hesab edirdim ki, Rüstəm İbrahimbəyov vəfat edəndən sonra Azərbaycan Kinematoqrafçılar İttifaqı bizim İttifaqla birləşdiriləcək və Əlisa Cabbarov katib olacaq".

✍ *Banu*

## HƏFTƏ REYTİNQ

### Həftənin DƏVƏTİ



İsrail Dövlətinin Prezidenti İsxak Hersoq Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb. İsrail Prezidenti məktubunda İlham Əliyevi ölkəsinə səfərə dəvət edib: "Ötən həftə baş tutan səmimi və səmərəli söhbətimizdən çox sevindim. Bu cür təmaslar əlaqələrimizin sıx olduğunu və inkişaf etdiyini göstərir. Fürsətdən istifadə edərək, müzakirələrimizi davam etdirmək üçün Sizi rəsmi olaraq İsrailə səfərə dəvət etmək istərdim. Sizi İsraildə qəbul etmək əsl şərəf olardı. Ümid edirəm ki, belə bir səfər İsraildə səfirliyinizin açılması üçün də bir fürsət ola bilər".

### Həftənin HƏDİYYƏSİ



Litvada Ukraynaya "Bayraktar" pilotsuz uçuş aparatının alınması ilə bağlı kampaniya başladılıb və 5 milyon avro vəsait toplanılıb. Litvanın başlatdığı kampaniya barədə məlumat alan "Baykar" şirkəti ölkəyə "Bayraktar"ı ödənişsiz olaraq verəcəyini bildirib.

### Həftənin BƏYİ



Fransanın keçmiş Prezidenti Fransua Olland aktrisa sevgilisi Jüli Qaye ilə gizli şəkildə nikah bağlayıb. Bunun 67 yaşlı Fransua Ollandın ilk rəsmi nikahı olduğu bildirilir. Nikah mərasimi iyunun 4-ü ölkənin Korrez Departamentində baş tutub və cütlük mərasimə qonaq dəvət etməyib. Qeyd edək ki, F.Olland 1979-cu ildən 2007-ci ilə qədər "Sosialist" partiyasından yoldaşı Seqolen Ruayal ilə vətəndaş nikahında olub.

### Həftənin MƏHKUMU



Ermənistanın keçmiş müdafiə naziri David Tonoyanın məhkəmə prosesi ilk dəfə olaraq mətbuata açıq şəkildə keçirilib. Bu günə qədər məhkəmə prosesi qapalı rejimdə baş tutub. David Tonoyanla eyni zamanda məhkəmə prosesində ölkənin Baş Qərargahının keçmiş rəhbəri Artak Davtyan və onun müavini Stepan Qalstyan da təqsirləndirilən şəxs qismində çıxış edir.

### Həftənin BLOKU

Rusiyanın "RİA Novosti" xəbər agentliyinin internet saytı Azərbaycanda bloklanıb. Bundan əvvəl saytda Azərbaycanın Qarabağ ərazisindəki qondarma qurumun naziri Artak Beqlaryanın müsahibəsi dərc edilmişdi.

### Həftənin İRADI



Aktrisa Pərvin Abıyeva "Barselona"nın futbolçusu Jerar Pikenin müğənni Şakiraya xəyanət etməsi barədə xəbərlərə münasibət bildirib. Bu barədə o, instaqramda açdığı canlı efirdə danışıb. "Şakira bilmirdi ki, bütün günü evdə oturub uşaqlara pankek bişirəndə ona xəyanət ediləcək?", - deyə Abıyeva bildirib. Qeyd edək ki, İspaniya mətbuatı J. Pikenin komanda yoldaşı Gavinin anası ilə münasibətləri olduğunu yazıb.

✍ *Azad Əliyev*

# Professor Nəsir Əhmədli ilə vida mərasimi keçirilib



Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin professoru, Mətbuat Şurasının İdarə Heyətinin üzvü, respublikanın əməkdar jurnalisti Nəsir Əhmədli ilə vida mərasimi keçirilib. Tovuz rayonunun Alakol kəndində düzənlənmiş toplantıda Azərbaycan Mətbuat Şurasının, Bakı Dövlət Universitetinin jurnalistika fakultəsinin və kənd ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Çıxış edənlər Nəsir Əhmədlini gözəl ziyalı, dəyərli alim, mükəmməl pedaqoq, jurnalist peşəsinə sadiq şəxsiyyət, ustad qələm sahibi kimi xarakterizə ediblər. Bildirilib ki, professor Əhmədlinin bütün şüurlu həyatı jurnalistikaya xidmət üzərində qurulmuş bənzərsiz ömür yoludur. Bu xidmətə həm jurnalistikanın bir elm sahəsi kimi inkişafı, həm praktik müstəvidə ona yeniliklərin gətirilməsi, həm də müəllimlik sənəti var.

Zəhmətsevərliyi ilə nümunəyə çevrilmiş alim media məkanında dil mədəniyyətinin qorunması, ədəbi dilinin norma və qanunlarına riayət edilməsi istiqamətində həm dərin axtarış və müşahidələrə, həm də konkret elmiliyə söykənmiş geniş diapazonlu yaradıcılığa malikdir. Bu yaradıcılıq isə gələcək nəsillərə miras əvəzsiz isrdir.

Qeyd edək ki, BDU-nun jurnalistika fakültəsini professoru Nəsir Əhmədli iyunun 7-də dünyasını dəyişib.

"Həftə içi" qəzetinin kollektivi olaraq mərhumun yaxınlarına dərin hüznlə başsağlığı verir, səbr diləyirik.

Allah Rəhmət eləsin.

# Zəngilanda "Azercell"in ilk rəsmi diler mağazası! ®

**Azərbaycan Respublikası Prezidentinin imzaladığı dövlət proqramının nəzərdə tutduğu Regional İnfrastruktur Layihələrində aparıcı oyunçulardan biri olan "Azercell Telekom" bu sahədə növbəti əhəmiyyətli addımını atır.**



"Bağlantını asanlaşdırır, həyatı daha dolğun edirik" strateji məqsədinə uyğun olaraq lider mobil operator Zəngilanın Ağalı kəndində ilk rəsmi diler mağazasını abunəçilərinin istifadəsinə verir.

Qururverici haldır ki, işğaldan azad olunmuş tarixi ərazilərimizdə ilk rəsmi satış və xidmət məntəqəsinin açılışı Zəngilanda ötən ildən başlayaraq intensiv şəkildə həyata keçirilən "Ağıllı kənd" (Smart Village) layihəsinin ölkə prezidentinin bilavasitə iştirakı ilə keçirilən təntənəli açılışına təsadüf etdi.

Qeyd edək ki, Azercell-in bu regionda təqdim etdiyi mağaza abunəçilərə yüksək standartlara uyğun xidmət göstərmək üçün tələb olunan bütün şərait və ən müasir avadanlıqlarla təmin olunub. Mağazada abunəçilərə istədikləri məhsulu tədqiq və müqayisə edib seçməkdə peşəkar satış mütəxəssisləri yardım edəcəklər. Nəzərə çatdıraq ki, Ağalı kəndində yerləşən diler dükanında şirkətin digər müştəri xidmətləri mərkəzlərində həyata keçirilən əksər abunəçi əməliyyatlarının icrası mümkündür. Həmçinin, paytaxt və digər bölgələrdə fəaliyyət göstərən diler mağazalarında olduğu kimi, burada da abunəçilər gündəlik istifadələri üçün bir sıra yeni cihazlar (MiFi, USB modem və s.), müxtəlif aksessuarlar əldə edə, mobil telefonları kredit və nağd şəkildə satın ala bilərlər.

Xatırladaq ki, daha öncə aprel ayında Azercell Müştəri Xidmətləri komandası azad olunmuş ərazilərimizdə şirkətin şəbəkəsindən faydalanan abunəçilərə dəstək göstərmək təşəbbüsü ilə Zəngilanın Ağalı kəndinə, eləcə də Şuşa, Cəbrayıl, Qubadlı və Kəlbəcərə səfər edərək abunəçilərə ödənişsiz xidmət göstərib. Azercell-in əsas vəzifəsi və məqsədi işğaldan azad edilmiş ərazilərdə tam gücü ilə yeni nəsil şəbəkənin genişləndirilməsini sürətləndirmək və bu ərazilərə qayıdacaq əhalini mobil internet və qabaqcıl kommunikasiya xidmətləri ilə təmin etməkdir.

## GÜNÜN FOTOSU



Danimarkalı könüllülər Ukraynada mina axtarır

# Hədəf Kəlbəcərdir

**Elxan Şıxəliyev,**
hərbi ekspert

Kəlbəcər bölgəsində kifayət qədər strateji və taktiki yüksəkliklər var.

Səh. 6

## STATİSTİKA



■ Azərbaycanın ən yaşlı kişi vətəndaşı İbrahimov Hilal İsa oğludur. 1915-ci il təvəllüdlü H.İbrahimov ölkəmizin həm də ən yaşlı kişi seçicisidir. O, Ağcabədi rayonunun Sarıcalılar kəndində doğulub. Ölkəmizin ən yaşlı sakinin 22 nəvəsi, 18 nəticəsi var.

■ Azərbaycanın ən yaşlı vətəndaşı Nuriyeva Şərabanı Əli qızıdır. 1900-ci ildə dünyaya göz açan Ş.Nuriyeva hazırda ölkəmizin ən yaşlı seçicisidir.

O, Gədəbəy rayonunun Düz Rəsullu kəndində doğulub boya başa çatıb. Ş.Nuriyevanın 6 nəvəsi, 13 nəticəsi var.



Səh. 7

# Liseylərə qəbul imtahanları